وارلیق

دیل، ادبیات، توپلوم و کولتور



ایکینجی دؤنم، سایی (2)44, 2026

پروفسور دوکتور محمدتقی زهتابی اؤزل ساییسی

واریق

VARLIQ

دیل، ادبیات، توپلوم و کولتور آراشدیرمالاری درگیسی
نشریه پژوهشی زبان، ادبیات، جامعه و فرهنگ

ایکینجی دؤنم، سایی (2)44 :2026
دوره دوم، شماره (2)44 :2026

قوروجو / موسس

مرحوم پروفسور دوکتور جواد هیئت

صاحیبی و باش ادیتورو / صاحب امتیاز و سردبیر

دوکتور محمدرضا هیئت

یازیشما آدرسی / آدرس مکاتبه
آنکارا اونیورسیته‌سی، دیل و تاریخ- جوغرافیا فاکولته‌سی، صحیّه، آنکارا
ایمیل
varliqdergisi@gmail.com; varliq@varliq.org
وب
www.varliq.org
مطبعه
استپ دیجیتال
صحیفه ساییسی
216
ISSN
2149-7257

یایین قورولو / شورای نویسندگان

حسن مجیدزاده (ساوالان)، کریم مشروطه‌چی (سؤنمز)، مرحوم اسماعیل هادی، حسن راشدی، علیرضا صرافی، حیدر بیات، اکبر آزاد، حسین محمدخانی (گونئیلی)، دوکتور تقی سلحشور، دوکتور آتا شاهد، عباس شادمند، دوکتور عماد حضرتی، دوکتور توغرول آتابای، محمدرضا قوچی، پروفسور دوکتور پروانه ممدلی، دوکتور ابراهیم رمضانی، دوکتور ابراهیم آریقان ، مرتضی حسینی

دیل ادیتورلاری / ویراستارهای زبان

دوکتور محمدرضا هیئت (تورکجه-فارسجا)
دریا اربیرسین (اینگیلیزجه)
پروفسور دوکتور گولسوم کیللی (روسجا)

تاساریم

عباس شادمند

وب و تکنیک ایشلر

دوکتور عماد حضرتی

بیلیم قورولو / مشاوران علمی

(آلفابتیک)

مرحوم دوکتور عارف آجال‌اوغلو
یئدی‌تپه اونیورسیته‌سی، آنتروپولوژی بؤلومو
ایستانبول/تورکیه

پروفسور دوکتور یاووز آق‌پینار
اگه اونیورسیته‌سی، تورک دیلی وادبیاتی بؤلومو
ایزمیر/تورکیه

پروفسور دوکتور گولشن سیحان آلیشیق
مارمارا اونیورسیته‌سی، تورک دیلی و ادبیاتی بؤلومو
ایستانبول/تورکیه

پروفسور دوکتور نوشابه آراسلی
آذربایجان علملر آکادمیسی، ادبیات انستیتوسو
باکی/آذربایجان

دوچنت دوکتور عبدالقدیر آتیجی
قیرقلار ائلی اونیورسیته‌سی، چاغداش تورک لهجه‌لری و ادبیاتلاری بؤلومو، قیرقلار ائلی/تورکیه

پروفسور دوکتور ملک اردم
آنکارا اونیورسیته‌سی، چاغداش تورک لهجه‌لر ادبیاتلاری بؤلومو، آنکارا/تورکیه

پروفسور دوکتور ف. سما باروتجو اؤز اؤندر
آنکارا اونیورسیته‌سی، چاغداش تورک لهجه‌لری و ادبیاتلاری بؤلومو باشقانی، آنکارا/تورکیه

آکادمیک مختار ایمانوف
آذربایجان علملر آکادمیسی، فولکلور انستیتوسو
دیرکتورو، باکی/آذربایجان

پروفسور دوکتور صمد بایرامزاده
آذربایجان علملر آکادمیسی، دوغو بیلیملری انستیتوسو، گونئی آذربایجان شعبه‌سی مودورو
باکی/آذربایجان

پروفسور دوکتور سونل بوسنالی
نامیق کمال اونیورسیته‌سی، فرانسیز دیلی و ادبیاتی بؤلومو، تکیرداغ/تورکیه

دوکتور بهروز بیگ‌بابایی
علامه طباطبایی اونیورسیته‌سی، تورک دیلی و ادبیاتی بؤلومو، تهران/ایران

پروفسور دوکتور غضنفر پاشایف
آذربایجان علملر آکادمیسی، نظامی آدینا ادبیات انستیتوسو، باش علمی ایشچی، باکی/آذربایجان

پروفسور دوکتور نظامی جعفروف
آذربایجان‌دا آتاتورک آراشدیرما مرکزی‌نین دیکتورو؛ باکی دؤلت اونیورسیته‌سی دیلچیلیک بؤلومو باشقانی، باکی/آذربایجان

دوکتور محی‌الدین چلیک
اینؤنو اونیورسیته‌سی، تورک دیلی و ادبیاتی بؤلومو
مالاتیا/تورکیه

دوچنت دوکتور عبدالقدیر آتیجی
قیرقلار ائلی اونیورسیته‌سی، چاغداش تورک لهجه‌لری و ادبیاتلاری بؤلومو، قیرقلار ائلی/تورکیه

آکادمیک پروفسور دوکتور عیسی حبیب‌بگلی
آذربایجان علملر آکادمیسی باشقانی
باکی/آذربایجان

پروفسور دوکتور رافائل حسینوف
آذربایجان علملر آکادمیسی، نظامی آدینا
آذربایجان ادبیات موزه‌سی دیرکتورو، باکی/
آذربایجان

پروفسور دوکتور محمد صالح راسخ
بلخ اونیورسیته‌سی، دیل و ادبیات فاکولته‌سی، دری دیلی و ادبیاتی بؤلومو، بلخ/افغانستان

مرحوم پروفسور دوکتور اکرم رحیملی
آذربایجان علملر آکادمیسی، دوغو بیلیملری انستیتوسو، گونئی آذربایجان شعبه‌سی
باکی/آذربایجان

پروفسور دوکتور آصیف روستملی
آذربایجان علملر آکادمیسی، نظامی آدین ادبیات انستیتوسو، پوبلیسیستیکا شعبه‌سی مودورو
باکی/آذربایجان

دوچنت دوکتور سلجان ساغلیق شاهین
آنکارا اونیورسیته‌سی، چاغداش تورک لهجه‌لری و ادبیاتلاری بؤلومو، آنکارا/تورکیه

پروفسور دوکتور محمود ساری‌قایا
اخی ائورن اونیورسیته‌سی، تورک دیلی و ادبیاتی بؤلومو، قیرشهیر/تورکیه

پروفسور دوکتور یالچین ساری‌قایا
گیره‌سون اونیورسیته‌سی، اولوسلار آراسی ایلیشکیلر بؤلومو، گیره‌سون/تورکیه

پروفسور دوکتور بئردی ساری‌یف
آنکارا اونیورسیته‌سی، چاغداش تورک لهجه‌لری و ادبیاتلاری بؤلومو، آنکارا/تورکیه

دوچنت دوکتور سعادت شیخی‌یوا
آذربایجان علملر آکادمیسی، دوغو بیلیملری انستیتوسو، باکی/آآذربایجان

پروفسور دوکتور علی عسکر
قارابوک اونیورسیته‌سی، اولوسلار آراسی ایلیشکیلر بؤلومو، قارابوک/تورکیه

مرحوم پروفسور دوکتور رامیز عسکر
باکی دؤلت اونیورسیته‌سی، تورک خالقلاری ادبیاتلاری کافئدرا مودورو، باکی/آذربایجان

روفسور دوکتور افضل‌الدین عسگروف
آذربایجان علملر آکادمیسی، فولکلور انستیتوسو، تورک خالقلاری فولکلورو شعبه مودورو، باکی/ آذربایجان

دوکتور شفق علی‌بگلی
آذربایجان علملر آکادمیسی، نظامی آدینا آذربایجان ادبیات موزه‌سی، اولوسلار آراسی ایلیشکیلر شعبه‌سی مودورو، باکی/آذربایجان

پروفسور دوکتور حسین قاراملیکلی
قارابوک اونیورسیته‌سی، اقتصاد بؤلومو، قارابوک/ تورکیه

دوکتور علیرضا قوچی
آرکئولوق، آنکارا/تورکیه

دوکتور گولجان قیزیل‌اؤزن
اینؤنو اونیورسیته‌سی، تورک دیلی و ادبیاتی بؤلومو مالاتیا/تورکیه

آکادمیک پروفسور دوکتور تیمور کریملی
آذربایجان علملر آکادمیسی، فضولی آدینا الیازمالار انستیتوسو دیرکتورو، باکی/آذربایجان

مرحوم دوچنت دوکتور پاشا کریموف
آذربایجان علملر آکادمیسی، فضولی آدینا الیازمالار انستیتوسو، علمی ایشلر اوزره دیرکتور معاونی، باکی/آذربایجان

پروفسور دوکتور گولسوم کیللی ییلماز
آنکارا اونیورسیته‌سی، چاغداش تورک لهجه‌لری و ادبیاتلاری بؤلومو، آنکارا/تورکیه

دوچنت دوکتور سایمه سلنگا گؤک‌گؤز
حاجت‌تپه اونیورسیته‌سی، آتاتورک ایلکه‌لری و انقلاب تاریخی انستیتوسو، آنکارا/تورکیه

پروفسور دوکتور ابراهیم ماراش
آنکارا اونیورسیته‌سی، فلسفه و دین بیلیملری بؤلومو، اسلام فلسفه‌سی آنابیلیم دالی، تورک دوشونجه تاریخی بیلیم دالی، آنکارا/تورکیه

آکادمیک پروفسور دوکتور یعقوب محمودوف
آذربایجان علملر آکادمیسی، عباسقولو اقا باگیخانوف آدینا تاریخ انستیتوسو دیرکتورو، باکی/ آذربایجان

پروفسور دوکتور ودادی مصطفی‌یف
آذربایجان علملر آکادمیسی، دوغو بیلیملری انستیتوسو، ایران تاریخی و اقتصادیاتی شعبه‌سی مودورو، باکی/آذربایجان

دوکتور توحید ملک‌زاده
اورمیه آزاد اسلام اونیورسیته‌سی، اورمیه/ایران

پروفسور دوکتور نادر ممدلی
آذربایجان علملر آکادمیسی، نظامی آدینا دیلچیلیک انستیتوسو دیرکتورو، باکی/آذربایجان

پروفسور دوکتور اورحان یازیجی
اینؤنو اونیورسیته‌سی، یئنی چاغ تاریخی آنابیلیم دالی باشقانی، مالاتیا/تورکیه

جلیل یعقوب‌زاده
دؤلت یؤنتیمی اوزمانی، آراشدیرماجی، کرج/ایران

دوچنت دوکتور آتیلا یورما
اولوسلار آراسی ویزیون اونیورسیته‌سی، مقدونیه

وارلیق
VARLIQ
دیل، ادبیات، توپلوم و کولتور آراشدیرمالاری درگیسی
نشریه پژوهشی زبان، ادبیات، جامعه و فرهنگ
ایکینجی دؤنم، سایی (2)44 :2026
دوره دوم، شماره (2)44 :2026

ایچینده‌کیلر / فهرست

دوکتور محمدرضا هیئت
سونوش: رحمتلی دوکتور زهتابی‌نین اونودولماز خاطیره‌سینه 7

- **اکبر آزاد**
سون گؤروش؛ ابدی وداع 9
- **حسن راشدی**
دوکتور محمدتقی زهتابی، میثلی آز گؤرولن فداکار انسان! 17
- **رحمتلی حسن دمیرچی**
«سو دئییبدیر...» شاعیری‌نین آختاریشیندا 21
- **یعقوب تقوی**
سنی وطنسیزله‌ییب وطن 25
- **رضا همراز**
پروفسور دوکتور زهتابی‌نین عراق‌داکی یارادیجیلیغی 29
- **مریم نیک بخت**
دکتر زهتابی و اولین کتاب ترکی من 39
- **محمدرضا قوچی**
دکتر زهتابی ایله سون گؤروش 43
- **بابک هرگلی**
دوکتور زهتابی‌دن قیسا بیر خاطیره: «تبریزده اولمالی‌دیر.» 49
- **حسین رنگرززاده**
دوکتور زهتابی و میلتینه حصر اولونموش بیر عؤمور 51
- **دوکتور محمدرضا هیئت**
ایلک تورکجه اؤیرتمنیم دوکتور محمدتقی زهتابی 57
- **بنیاد برومند**
گزارش بنیاد برومند در خصوص زندگی و مرگ دکتر محمدتقی زهتابی 63
- **رسیملی خاطیره‌لر**
دوکتور زهتابی‌نین رسیم آلبومو 75

- **پروفسور دوکتور علی قافقاسیالی**
محمدتقی زهتابی و اونون چالیشمالاری 97
- **دوچنت دوکتور سبحان طالیبلی**
زهتابی‌نین اثرلرینده آذربایجان تورکجه‌سی‌نین و تاریخی‌نین آراشدیریلماسی مسئله‌لری 129
- **پروفسور دوکتور پروانه ممدلی**
گونئی آذربایجان‌ین میلّی دیره‌نیشی‌نین سمبولو محمدتقی زهتابی 147
- **پروفسور دوکتور اسمیرا فواد**
ایکی فرقلی کیملیک و مدنیتی قارشیلاشدیران پوئتیک متن: «سن اوسان، من ده بویام» 165
- **یاشار (علی) پورعلی**
ایران تورکچولویونون فیکیر اؤنجولریندن بیری پروفسور زهتابی 175
- **پروفسور دوکتور صمد بایرامزاده**
آذربایجانلی دموکرات بیر گنجین عؤمور یولو
محمدتقی زهتابی‌نین حیاتی و یارادیجیلیغی 195
- **ائلدار قاراداغلی**
دوکتور زهتابی چاغداش آذربایجان میلّی حرکتی‌نین معنوی آتاسی 201
- **رضا شانلی**
پروفسور دوکتور زهتابی ایله سون بولوشما 209
- **شعرلر**
پروفسور دوکتور زهتابی‌دن سئچیلمیش شعرلر 211

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 7-8
Telif Haqqı©Varlıq Dergisi

سونوش:

سئوگیلی اوخوجولار،

درگیمیزین ایکینجی یایین دؤنمی‌نین ۴۴-جو سایی‌سینی سیزلره سونماقدان موتلولوق دویوروق.

وارلیق درگیسی‌نین بو سایی‌سینی دیلیمیزین و ادبیاتیمیزین بؤیوک اوستادی، فداکار شخصیتی، گؤرکملی عالیمی رحمتلی پروفسور دوکتور محمدتقی زهتابی‌نین عزیز خاطیره‌سینه آییردیق.

درگیمیزین گئچمیش ایللرینده بیر چوخ مقاله‌سی و علمی آراشدیرماسی یاییملانان پروفسور زهتابی، درگی‌نین قوروجولاری و یازارلاری ایله ده یاخین ایلیشکیسی و امکداشلیغی ایله ده عادتا درگی‌نین یایین قورولونون دایمی اویه‌سی کیمی فعالیت گؤسترمیش، اؤزللیکله دیل و ادبیاتلا ایلگیلی بیلیمسل مقاله‌لرینی درگیمیزده یاییملاتماغی ترجیح ائتمیش و وارلیق درگیسی ده بؤیوک بیر ممنونیتله بو مقاله‌لره یئر وئرمیش، سئوه- سئوه اوخوجولارینا تقدیم ائتمیشدیر.

دوکتور زهتابی‌نی دگرلی قیلان اونون ساده‌جه علمی فعالیتلری اولمامیشدیر. او، اؤزونون محدود امکانلاری و سیخینتیلی یاشامیندان الده ائتدیگی مدنی جسارتی ایله تک باشینا یاساقلاری قیرماغی باشاران بیر شخصیت کیمی میرزه حسن روشدیه‌نین یولونو ایزله‌یه‌رک، گنجدن یاشلیسینا بیر چوخ انسانا آنا دیلینی، وطن دیلینی، تورکجه‌نی علمی شکیلده اؤیره‌دن فداکار بیر اؤیرتمن میثالی، یوزلرجه بلکه ده مینلرجه اؤیرنجی یئتیشدیرمیشدیر. بو سطیرلری یازان و بوگون وارلیق درگیسی‌نین باش ادیتورو اولاراق چالیشان محمدرضا هیئت ده بو بؤیوک اؤیرتمنین مکتبینده یئتیشن شخصلردن بیری‌دیر.

بوتون بونلاری و سایی‌لابیله‌جک بیر چوخ خیدمتی دقته آلاراق، هم وارلیق درگیسی، هم شخصیم هم ده میلّت اولاراق بو شریف عالیمی و اوستادی آنماغی، اونون حاقیندا یازیلار یازماغی و یاییملاتماغی اؤزوموزه بورج بیلدیک. بو بورجو قیسما ده اولسا اؤده‌مک اوچون اونو یاخیندان تانییان، اونون مکتبینده درس گؤرن، اونونلا خاطیره‌سی اولان و یا اونو آراشدیران شخصلرله ارتباطا گئچه‌رک، یازیلار ایسته‌دیک. قیسیتلی بیر زامان آییرابیلمه‌میزه باخمایاراق،

چوخ سایيدا یازی بیزه چاتدیریلدی و امینیک کی، داها چوخ فرصت اولسایدی بیر چوخ یازی دا الیمیزه چاتاجاقدی. بوندان سونرا گله‌جک اولان یازیلار و خاطیره‌لر ده، البته کی، درگیمیزین بیر سونراکی سایيلاریندا نشر ائدیله‌جکدیر.

یئنه وارلیق درگیسی اولاراق، پروفسور دوکتور زهتابی‌نین دوغومونون ۱۰۳-جو ایلینده آنکارا اونیورسیته‌سی ایله بیرلیکده بیر آنما تؤره‌نی دوزنله‌مه‌یه و بو اؤزل سایینی تؤره‌نه قاتیلانلارلا پایلاشماغا قرار وئردیک. بو تؤره‌نین خبرینه ده بیر سونراکی سایيمیزدا گئنیش یئر وئریله‌جکدیر.

بو وسیله ایله بیلیمسل یازیلاری، خاطیره‌لری و یا گؤندردیکلری رسیملرله بو سایی‌نین حاضیرلانماسیندا امگی گئچن هرکسه تشکورلریمیزی بیلدیریر، بؤیوک اوستادیمیز مرحوم دوکتور زهتابی‌یه اولو تانریدان رحمت دیله‌ییریک. یئری اوچماق، یولو گئدرلی اولسون!

دوکتور محمدرضا هیئت

وارلیق درگیسی باش ادیتورو

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 9-15
Telif Haqqı©Varlıq Dergisi

سون گؤروش؛ ابدی وداع

● **اکبر آزاد** [1]



سایین دوکتور محمدتقی زهتابی (کیریشچی) تزه‌جه خاریج سفریندن گلمیشدیلر. بیزلری، یعنی جناب مهندس حسن راشدی؛ جناب دوکتور حسین محمدخانی (گونئیلی) و منی (اکبر آزاد) گؤروشه چاغیردیلار. بیز چاغیریش وعده‌سینده، تهران‌ین انقلاب مئیدانی هنده‌ورینده، تعیین اولموش گؤروش یئرینه گئتدیک. گؤروشوب سلاملاشدیقدان سونرا اوتوروب دانیشدیق. بیز سوروشدوق؛ دوکتور بگ جاوابلادیلار. بعضاً ده بیز سوروشمادان اؤزلری اؤزل بیر موضوعنو ایضاح ائدیردیلر. گله‌جک باره‌ده بؤیوک اومید ایله اطرافلی دانیشیردیلار. تاکید ائدیردیلر، گرک تام انرژی و گوجوموزله حاضیرلاشاق، یاخین گله‌جکده جیدّی چالیشمامیزا احتیاج اولاجاق!

او گؤروش اوچ- دؤرد ساعات چکدی. وداعلاشدیغیمیز زامان دوکتور بگ هره‌میز بیر قلم سووغات اولاراق پای وئردی. من او قلمی، مورکبّی قورتارانا قدر ایشلتدیم، یازدیم. مورکبّی قورتارمیش قلمی بئله آتماغا الیم گلمیردی. اوزون مدت ائله گؤز قاباغیندا ایدی.

وداعلاشاندا بیر داها تاکید ائتدیلر تئزلیکله یئنیدن گوروشمه‌لی‌یک! او گون بیزه دئمه‌دی شبیستره (چؤستره) گئده‌جکلرینی. آنجاق بیر- ایکی گون سونرا شبیستردن خبری، وای خبری، اؤلوم خبری گلدی!

---

[1] *وارلیق* درگیسی یایین قورولو اویه‌سی، آراشدیرماجی.

حقیقتاً اینانابیلمیردیک! اساساً اینانماق دا اولموردو. ایکی- اوچ گون اؤنجه تهران‌دا گؤروشموشدوک! ساغ-سلامت؛ صاف- چیللە اؤز آیاغی اوستونده بؤیوک اومیدله گله‌جکدن دانیشیردیلار. ایندی وای خبری شبیستردن گلمیشدی.

ایناماق ایسته‌مه‌سه‌ک ده خبری وئرنلر موثق و موجّه آداملار ایدیلر...

ایسته‌مه‌دن بُهت- حئیرته دالدیق. اؤزوموزله شبیستر آراسیندا انگین بیر بوشلوق دویوردوق!

هر حالدا دوستلارلا قرارلاشیب شبیستره (چؤستره) دوغرو یولا دوشدوک. گئتمه‌دن دوکتورون یاشامی حاقدا بیر یازی حاضیرلادیم. بو یازی‌نین ماتریاللاری‌نین بیر حیصه‌سینی دوکتورون زهتابی اؤزلری یازمیشدیلار؛ بیر حیصه‌سینی ده دوکتور گونئیلی‌دن آلیب (دوکتور زهتابی‌نین یاشام شرحی‌نین بو حیصه‌سینی ده اؤزلری سؤیله‌میشدیلر) تلفیق و ترکیب ائدیب آرتیرمالارلا کیچیک بیر جزوه کیمی "چیچکلر قورولوشو" آدییلا چاپ ائتدیردیم. چاب اولموش جزوه‌لری اؤزوموزله شبیستره آپاریب؛ اورایا گلنلر آراسیندا پایلادیق.

سونرالار چوخلاری تکرار بو یاشام شرحینی مختلف یئرده یازیب یایدیلار آنجاق اغلب هارادان گؤتوردوکلرینی دیله گتیرمه‌دیلر. هر حالدا دوکتورون اؤلومونون علّتی بارده فرقلی فیکر و دوشونجه‌لر اورتایا چیخمیشدی.

زنجیرله‌مه جینایتلر (قتل‌های زنجیره‌ای) زامانی ایدی، چوخلاری معتقد ایدیلر امنیتی قوّه‌لر آراسیندا "اؤز باشینالیق" ائدن شخصلر دوکتورو اؤلدوروبلر و...

محکمه حکیم‌لیگی (پزشکی قانونی) طبیعی اولاراق سکته ائتدیگینی بیلدیرمیشدی. سونرالار زنجیرله‌مه جینایتلرین سیرّی آچیلدی. او زامانلار دوکتور زهتابی‌نین ایل دؤنوموندە "چیچک‌لر قورولوشو" خامنه‌ای‌لر حسینیه‌سینده بیر خاطیره مراسیمی قورماغا چالیشیردی. قزئته‌لرده چاپ ائتدیرمک اوچون فارسجا بیر اعلان حاضیرلادیق. اعلانین الیازما متنینی بیر خبر کیمی چاپ اولماق اوچون من اؤزوم ۶-۵ اصلاحاتچی قزئته‌نین اداره‌سینه آپاردیم. هئچ بیریسی مراسیمین خبرینی چاپ ائتمه‌یه حاضیر اولمادی. حتّی *مشارکت* قزئته‌سینه باش ووردوم (مشارکت پارتیسی‌نین اصلی اورقانی)؛ قزئته‌نین مختلف سیاسی؛ اجتماعی؛ هنری؛ فرهنگی و... بولؤملری‌نین سورواملو مودورلرینه بیر-بیر مراجعه ائتدیم. سونونجو سورواملو مودور منی قبول ائتدیکدن سونرا بئله بیر سؤز دئدی:

"سن قزئته‌نین اداره‌سینه گلدیگیندن ایندییه قدر سنه دقت ائدیرم؛ گؤردوم مختلف شخصلره مراجعه ائتدین! قوی من سنی راحات ائدیم؛ بیز بئله بیر قرارا گلمیشیک کی، آذربایجان و آذربایجانلیلارین باره‌سینده خبر و مطالّب چاپ ائتمه‌یه‌ک."

من دیسکینن کیمی اولسام دا او شخصدن تشکور ائتدیم:

"چوخ ساغ اولون! نه یاخشی کی؛ بونو دئدینیز! معلوم اولور هله آذربایجان و تورکلره "مشارکت" سیراسی یئتیشمه‌یی‌بدیر و... "

او بیر تَهَر منیم سؤزومو تصدیق ائتدی. من ایسه وداعلاشیب *مشارکت* قزئته‌سی‌نین اداره‌سیندن چیخدیم....

هر حالدا دوکتور محمدتقی زهتابی (کیریشچی) فوت ائتمیشدیلر. بو حادثه گونئی آذربایجان تورکلری‌نین میلّی حرکاتی اوچون بؤیوک بیر ایتکی ایدی.

او گونئی آذربایجان تورک میلّتی‌نین میلّی کیملیگه دؤنوش حرکاتی‌نین دوشونجه و عمل ساحه‌سینده‌کی اؤنملی رهبرلریندن بیری ایدی...

هله ده اونون دوشونجه‌لری و چالیشما طرزی بیر چوخ آذربایجان میلّی فعالی‌نین یول گوستریجیسی‌دیر.

بورادا آرتیرماق لازیم‌دیر؛ اساساً ایران تورکلری و اؤزللیکله آذربایجان تورکلری‌نین معاصر اویانیشی و میلّی کیملیگه دؤنوش حرکاتیندا بیر چوخ دوشونر، بیلگین و مبارز انسانین اؤنملی رولو و تاثیری اولموشدور. او جمله‌دن:

رحمتلیک اوستاد تبریزلی علی.

معاصر آذربایجان تورک میلّی حرکاتی بیر اعتبارا اونون چالیشماری ایله باشلانیر. "دیل و ادبیات" کیتابی اونون دوشوجه‌لرینی احتیوا ائدیر.

سونرا اوستاد یحیی شیدا و تبریزده نشر ائتدیگی *فروغ آزادی* قزئتی‌نین تورکجه صحیفه‌سی، هابئله "ادبیات اوجاغی" مجموعه‌سیندن آد آپارماق اولار.

داها سونرا قوجامان بیلگینلر سایین دوکتور جواد هیئت، دوکتور محمد تقی زهتابی، دوکتور محمدعلی فرزانه، دوکتور حمید محمدزاده، کریم مشروطه‌چی (سؤنمز)، علی کمالی، دوکتور حمید نطقی، علیرضا صرافی، عزیز محسنی، حسن راشدی، حسن مجیدزاده (ساوالان)، دوکتور حسین محمدخانی (گونئیلی)، دوکتور بیگدیلی، تیمور پیرهاشمی، اسماعیل هادی و باشقالاریندان آد چکمک اولار. بو اوستادلارین هر بیریسی میلی کیملیگه دؤنوش حرکاتیندا اؤزل سبک و شیوه صاحیبی اولسالار دا *وارلیق* درگیسی‌نین چئوره‌سینه توپلاشاراق بیر چوخ گنجلرله بیرلیکده سون ایللره‌دک داواملی چالیشاراق ایران‌دا یاشایان تورکلرین و اؤزللیکله آذربایجان تورکلری‌نین دیل، ادبیات و میلی کیملیگه دؤنوشو اوغروندا «وارلیق مکتبی»نی یاراتمیشدیلار.

وارلیق درگیسنده قلم چالان ایلکین قوجامان اوستادلارین بیر چوخو زامان سوره‌جینده و تدریجله وفات ائتدیکدن سونرا و اؤزللیکله سایین دوکتور جواد هیئت باکی‌دا حیاتینی دگیشدیکدن سونرا *وارلیق* درگیسی‌نین گنج وارثی یعنی دوکتور محمدرضا هیئت مختلف

دلیللره گؤره آنکارایا کؤچدو، نتیجه‌ده *وارلیق* درگیسی ده آنکارایا کؤچدو. ایندیلیکده ده آنکارادا نشر اولماقدادیر.

عینی حالدا *وارلیق* درگیسی‌نین بیر نئچه یازیچیسی چالیشدیلار (ایذینلری اولمادان) *وارلیق* درگیسی‌نین نشرینی تهران‌دا داوام ائتدیرسینلر. بئله بیر تشبثون داوامیندا چوخ آز بیر زاماندا "آنا وارلیق" آدیندا بیر درگی‌نین انتشاری اوچون تهران نشریات دایره‌سیندن یئنی مجوز آلیب نشره باشلادیلار.

آذربایجان تورکلری‌نین میلی کیملیگه دؤنوش حرکاتی‌نین اؤن سیراسیندا مختلف سبک و شیوه‌یه صاحیب اولان چالیشقان بیلگینلرین اشتراکی اولموشدور. او جمله‌دن یورولماز یازیچی، تدقیقاتچی، مصحح، ژورنالیست و شاعیر دوکتور حسین محمدزاده صدیق (دوزگون).

دوکتور صدیق گنجلیک زامانلاریندان صمد بهرنگی و باشقا دوستلاری ایله یاناشی آذربایجان کندلرینده معلیم‌لیکله باشلایاراق آذربایجان تورک میلّی کیملیگینه دؤنوش حرکاتیندا اؤنملی رول ایفا ائتمیشدیلر. پهلوی سولاله‌سی یئنیلدیکدن سونرا آردیجیل اولاراق *یولداش*، *یئنی یول*، *انقلاب یولوندا* آدلی درگیلری نشر ائتدیرمیشدیر.

ساییین دوکتور مرتضی مجدفر، دوکتور فیروز رفاهی، دوکتور محمدرضا کریمی و داها بیر چوخلاری ادبی- مدنی فعالیتلرده دوکتور صدیق‌له امکداشلیق ائتمیشدیلر.

بوندان علاوه ساییین دوکتور صدیق (دوزگون) یورولمادان مختلف بؤلگه‌لرده بیلیم یوردلاریندا آذربایجان تورکجه‌سی دیلی و ادبیاتینی تدریس ائتمیشدیلر و بیر چوخ نشریاتدا قلم چالیب، هابئله یوز اوتوزا یاخین مختلف کیتابلاری دا یایینلایاراق آذربایجان تورکجه‌سی ادبیاتی اوغروندا اؤنملی رول ایفا ائتمیشدیلر.

بو گون اونون اؤیرتدیکلری اساسیندا یئتیشمیش یوزلرجه شاگیردی و اوزللیکله اوغلو دوکتور ائلدار صدیق اونون یولونو داوام ائتدیریرلر.

هابئله قوجامان تدقیقاتچی، لوغتچی مختلف سؤزلوک کیتابلارینی حاضیرلاییب چاپا وئرن اوستاد بهزاد بهزادی *ائل دیلی و ادبیاتی* هابئله *آذری* درگیلرینی نشر ائتمیشدیر و بیر چوخ محقق، یازیچی و شاعیری اؤز چئوره‌سینه توپلامیشدیر. اوجمله‌دن دیر اکبر صالحی؛ دوکتور حسن ریاضی؛ مصطفی رزاقی؛ کاووس نصیری و...

سونرالار جناب بهزاد بهزادی فوت ائتدیکدن سونرا دوکتور حسن ریاضی و داها سونرا اونون گنج اوغلو دوکتور حسین ریاضی *"آذری* نشریه‌سی‌نین انتشارینی داوام ائتدیردیلر.

بونو دا قید ائتمک لازیمدیر کی، درگی‌نین "آذری" آدینا بیر چوخلاری اعتراض ائتمیشدیر. اوستاد بهزادی "آذری" آدی‌نین باره‌سینده دئییردیلر بو آد بیر جور تحمیل اولوبدور. یوخسا ارشاد اداره‌سی قبول ائتسه حاضیرام بو آدی دگیشم و...

بونلاردان علاوه آذربایجان میلی حرکتی‌نین گلیشمه‌سینده بیر چوخ شاعیر، یازیچی و تدقیقاتچی‌نین هابئله بیر چوخ NGO و اویرنجی تشکیلاتلاری‌نین دا ده دقته لایق روللاری اولموشدور.

هابئله *یول*، *دیلماج*، *بایرام* و... درگیلری‌نین و *سهند*، *اسلامی بیرلیک*، *نوید آذربجان*، *شمس تبریز*، *امید زنجان* و... کیمی قزئته‌لرین ده اؤز نووبه‌لرینده اؤنملی تاثیرلری اولموشدور.

ماراقلیسی بوراسینادیر کی، بو نشریاتین بعضیسی آذربایجان میلی حرکتی‌نی کونترول ائتمک اوچون بعضی دولت اورقانلاری طرفیندن یاییلیردی؛ آنجاق عملده اونلارین آماجلاری‌نین عکسینه چئوریلیردی.

دوکتور محمد تقی زهتابی (کیریشچی) یوخاریدا سادالادیغیم جریانلارین بیر چوخو ایله ایش بیرلیگی آپارمیشدیلار. او یورولمادان مختلف شهرلره سفر ائدیب، مختلف بیلیم یوردلاریندا آذربایجان تورکجه‌سی دیلی و ادبیاتینی، آذربایجان تاریخینی تدریس ائدیردی و آذربایجانلی تورکلرین میلی کیملیگی حاقیندا دانیشیردی.

دوکتور زهتابی آذربایجان تاریخی، ادبیاتی و کیملیگی ایله ایلگیلی چوخلو کیتابلارین مولیفی اولموشدور. او جمله‌دن ایکی جیلدلیک ″ ایران تورکلری‌نین اسکی تاریخی″ کیتابی.

بو کیتاب عمومیتله آذربایجان تورکلری آراسیندا و اؤزللیکله آذربایجان میلّی فعاللاری آراسیندا، میلّی کیملیگه دؤنوش اوُغروندا بؤیوک بیر دالغا یاراتدی. نئچه دفعه چاپی بیتدی و یئنیدن چاپ اولوب یاییلدی.

نئجه کی، رحمتلیک سایین دوکتور جواد هیئت‌ین ″سیری در تاریخ زبان و لهجه‌های ترکی″ آدلی کیتابی دفعه‌لرله چاپ اولوب یاییلدی و مثبت بیر دالغالار یاراتدی.

آذربایجان تورکلری‌نین اؤز میلّی کیملیکلرینه دؤنوش حرکاتی آددیم- آددیم گلیشمیشدیر. مثلا ایلک آددیملاردا ایران آنایاساسی‌نین اون بئشینجی ماده‌سی‌نین ایکینجی یاریسی‌نین اجراسینی مطالبه ائدیرلر. یعنی تورکجه‌نین مکتبلرده تدریس اولماسینی مطالبه ائدیردیلر.

ایندی بیر چوخلاری آذربایجان تورکجه‌سی‌نین مکتبلرده تدریس اولونماسینا قناعت ائتسه‌لر ده، بیر چوخ میلّی فعال دا فدرالیسم و یا استقلال اوغروندا فعالیت ائدیرلر.

میلّی فعاللار ایلک آددیملاردا ″تورک″ و یا ″آذری″ آدلاندیرمانین فرقینده دئییلدیلر. حتّی دوکتور زهتابی ده بعضی ایلک یایدیغی کتابلاریندا آذربایجان تورکلرینی آدلاندیرماق اوچون ″آذری″ ترمینینی ایشلتمیشدیر. آنجاق میلّی کیملیک اوغروندا جریاندا اولان مبارزه گئنیشلنیب درینلشدیکدن سونرا میلّی مبارزه‌نین اؤنجولری، او جمله‌دن دوکتور زهتابی ″آذری″ اصطلاحی‌نین قوندارما و سهو اولدوغونا تاکید ائده‌رک، تورک آدینی و تورک کیملیگینی ساوونوب مدافعه ائتمیشدی.

دوکتور زهتابی‌نین "ایران تورکلری‌نین اسکی تاریخی" آدلی کیتابی بو گلیشمه‌یه شاهددیر.

ارشاد اداره‌سی اوُزون بیر مدت بو کیتآبین چاپینا مانع اولوب رسمی چاپینی یاساق ائتمیشدیر.

بیر گون دوکتور زهتابی "اندیشه نو" یایین‌ائوینه باش ووردوغو زامان من ده اورادایدیم. گؤروشوب دانیشدیق. دوکتورون ایشی بیتدیکدن سونرا بیرلیکده دانیشا - دانیشا اورادان چیخدیق. یولدا "ایران تورکلری.نین اسکی تاریخی" کیتابی‌نین ایلکین نوسخه‌سینی چانتاسیندان چیخاریب منه گؤسترردی.

کیتاب حاقیندا بعضی ایضاحلار وئردی. دانیشیق آراسی بیر ورقه‌نی گؤسترردی. "ایران تورکلری‌نین اسکی تاریخی" کیتابی ایله باغلی ارشاد اداره‌سی‌نین رسمی نظری ایدی.

بئله یازمیشدی: "چاپ اولا بیلمز؛ یاساق دیر."

چوخ تاسف‌لندیم.

دوکتور بگ دئدیلر؛ بیر نئچه آی کئچسه بیر داها چاپ اجازه.سی آلماغا چالیشاجاغام.

دوکتور زهتابی یورلماندان چالیشیردی و نهایت رسمی یایین اجازه‌سینی آلا بیلدی.

ائله او دانیشیقدا "ایران تورکلری‌نین اسکی تاریخی" کتابینی واراقلایاندا گؤزوم "جیحون" سؤزجوگونه ساتاشدی. جناب دوکتورا سوال وئردیم:

"نییه "جیحون" سؤزجوگونو جیم "ح" ایله یازیبسینیز؟

سوروشدولار: بس نئجه یازیلمالی‌دیر؟

دئدیم : جیحون = جیهون = جئیهون اگر "هون چایی" معناسیندایسا، ایکی گؤزلو "هـ" ایله "جئیهون" یازیلمالی‌دیر. آرا وئرمه‌دن دئدی‌لر: هه- هه دوغرودور و بو حاقدا بحث سونا چاتدی.

دوکتور زهتابی همیشه ملی فعاللارا توصیه ائدردی: چالیشین آنا دیلیمیزین قرامرینی مکمل اؤیره‌نین و....

نهایت دوستلارلا بیرلیکده شبیستره چاتدیق! بیر باشا دوکتورون ائوینه گئتدیک. یئرلی تاکسی‌لرین سوروجولری دوکتورون ائوینی تانییییردیلار. بیر چوخ میلّی فعال بیزدن اؤنجه یئتیشمیشدیلر. دوکتورون باجی‌اوغلوسو سایین مهندس اقدسی بیزی قارشیلادی.

دوکتورون ائوینده هر شئی نظم و ترتیبله اؤز یئرینده ایدی، چالیشما ماساسی دا مرتب ایدی. دئییردیلر اوتوردوغو صندلین کناریندا یئره ییخیلیب فوت ائتمیشدیر.

نهایت دوکتورون جنازه‌سی دفن اوچون حاضیرلانیب و گنجلرین چیگنینده مزارلیغا دوغرو آپاریلدی. جنازه‌نی مشایعت ائدنلر دوکتور زهتابی‌نین جنازه‌سینی، اسلامی- میلّی شعارلاری سسلندیره‌رک، تام انتظاملا مزارلیغا قدر تشییع ائتدیلر.

بو آرادا شبیسترین پولیسی کیمسه‌یه مزاحم اولمادان جنازه‌نی مشایعت ائدنلرله یاناشی شبیسترین مزارلیغینا قدر گلدی.

دوکتور زهتابی‌نین جنازه‌سی مزارا قویولدوقدان سونرا بیر فعال ماوی بیر بایراغی گتیریب جنازه‌نین اوزرینه سردی. اورادا اولان جمعیتدن بیر نئچه‌سی نوبه ایله بیر نئچه بئل تورپاق مزارا تؤکوب، قبری تورپاقلا دولدوردولار. داها سونرا دانیشیقلار و شعر اوخومالار باشلادی. مهندس حسن بگ راشدی ایله من آپاریجی ایدیک؛ هم بعضی صحبتلری دانیشیردیق هم ده دوستلاری نوبه ایله چیخیش ائتمک اوچون دعوت ائدیردیک.

سس گوجلندیریجی اولمادیغی اوچون اوجادان دانیشماغا مجبور ایدیک؛ بوغازلاریمیز زورا دوشوردو.

مراسیمین بیر حیصه‌سینده بیر پولیس بیزه یاخینلاشیب، پولیس ماشینی‌نین سس‌گوجلندیریسیندن استفاده ائتمه‌یی اؤنردی؛ تردیدیمیز اولسا دا قبول ائتدیک.

من اؤز دانیشقلاریمین بیر حیصه‌سینده شبیسترلی شاعیر میرزه علی معجزدن آد چکیب اونون حاقیندا و دوکتور زهتابی‌نین بو شاعیرین اثرلرینی توپلاماق اوچون چکدیگی زحمتلرله باغلی چیخیش ائتدیم.

بو آرادا بیر نفر شیسترلی منه یاخینلاشیب یاواشجا قولاغیما دئدی:

"میرزه علی معجز شبستردن سورگون ائدیلندن ایندییه قدر کیمسه شبسترده اونون آدینی بو جور علنی، عموم حضوروندا چکمه‌میشدیر. سن تیلسیمی سیندیردین....!

مراسیمین سونونا قدر شعر اوخویانلار و دانیشانلار پولیس ماشینی‌نین سس‌گوجلندیریسیندن استفاده ائتدیلر و مراسیم دینجلیکله سونا چاتدی.

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 17-20
Telif Haqqı©Varlıq Dergisi

پروفسور دوکتور محمد تقی زهتابی
میثلی آز گؤرولن فداکار انسان!

● **حسن راشدی**[1]



دوکتور زهتابی‌نین آدینی ائشیدنده میلّی وارلیغیمیز یولوندا داغ اراده‌لی، دنیز بیلیکلی و توفان حرکتلی انسان گؤزومون قاباغیندا جانلانیر!

بلکه بیر پاراقراف یازی ایله دوکتور زهتابی‌نین وطنیمیز یولوندا نه قدر فداکار اولدوغونو گؤسترمک چوخ دا چتین اولماسین:

«او ۱۹ ایل، یعنی ایران‌دا پهلوی رژیمی دئوریلیب انقلاب غلبه قازانماندان سونرا، یعنی ۱۳۵۸-جی ایلین تیر آیینده گونئی آذربایجانا دؤندوکدن سونرا ۱۳۷۷-جی ایل و دی آی‌نین بیرینجی گونه قدر، داها دوغروسو وفات ائتدیگی گونه کیمی ایکی اولادی و حیات یولداشیندان اوزاق، تک و یالنیز یاشادی؛ آما هئچ زامان تک و یالقیز اولمادی! چونکو او تبریز بیلیم یوردو، اورمو، تهران و باشقا شهرلریمیزده حتی ائولرده مختلیف یوللارلا گنجلریمیزه اؤیرتمنلیک ائدیب اونلارا دوغما دیلیمیز، حقیقی و دوزگون تاریخیمیز، کیملیگیمیز و ادبیاتیمیزی درس وئردی!»

او بؤیوک انسان بوتون وارلیغی ایله یالنیز ملّتی اوچون یاشادی؛ اؤزو اوچون هئچ یاشامادی!

---

[1] *وارلیق* درگیسی یایین قورولو اویه‌سی، آراشدیرماجی. ایمیل: rashidi54@yahoo.com

وار قوه‌سی ایله چالیشیردی بیر ملّتین وارلیغی اوچون، بوچالیشمادا گئجه-گوندوز تانیمیردی؛ وارلیق تاریخیمیزی یازدی، ۷۰۰۰ ایللیک وارلیغیمیزی، او دا دوغما دیلیمیزده!

"ایران تورکلری‌نین اسکی تاریخی" کیتابی بیر دؤنوش نقطه‌سی اولدو تاریخیمیزده. یاشاییشی ان ساده انسانلارین یاشایشی کیمی ایدی. آما بو ساده یاشایان انساندا نه قدر یوکسکلیک، نه قدر بؤیوکلوک، نه قدر اراده، نه قدر اینام و درین بیلیک و معلومات وار ایدی؟!

یاشی‌نین چوخلوغونا باخمایاراق بیر گنج کیمی چالیشیردی. بیلیرم اونو یاشادان، اونو بو قدر حرکته گتیرن چیگینلرینده حسّ ائتدیگی آغیر میلّی وظیفه ایدی.

او، میلّتی‌نین آغریلارینی، آجیلارینی، تحقیرلرینی بوتون وارلیغی ایله حیسّ ائدیردی، او اؤزو اوچون یوخ میلّتی اوچون یاشادی؛ بو سؤز بیر تعارف دئییل؛ بیر حقیقت، بیر گرچکدیر!

گنجلیک چاغلاریندا قوزئی آذربایجان‌دا و باکی شهرینده بیلیم‌یوردو (دانشگاه) تحصیلینی بیتیردیکدن سونرا استالین‌ین کومونیست پارتیسی تعلیماتینا یوخ، اؤز میلّتی‌نین آلین یازیسینا اینانديغیندان دولایی سیبیریایا سورگون ائدیلدی؛ یاری یاشدا غربت اؤلکه‌لرده، او جمله‌دن عراق‌دا یاشاماغا مجبور اولدوغو حالدا اورادا دا عراق تورکلرینه (تورکمنلره) آنا دیلیمیزی درس دئدی؛ ۵۶ یاشیندا وطنه دؤندوکدن سونرا دا دؤرد ایل ده ایران‌دا زیندان چکدی و عـؤمرونون قالان ایللرینی تک یاشادی. آما هئچ زامان تکلیکده قالمادی، چونکو اونو سئونلر و دنیز دولو علم و بیلیگیندن فایدالانماق ایسته‌ینلر اونا بوش زامان قویموردولار!

میلّتینی سئوَن انسانا تکلیگین معناسی یوخدور؛ معنوی اوغول- قیزلاری همیشه اطرافیندا ایدیلر؛ هر بیر شهره آیاق قویوردوسا حضوروندان فایدالانماغا تله‌سن انسانلار چئوره‌سینی آلیر و عِلم و بیلیگیندن فایدالانیردیلار. چوخلو اؤیرنجیلر تربیت ائتدی، او دا هانسی شرایط و دورومدا؟

بوگون، اونون یازدیغی " ایران تورکلری‌نین اسکی تاریخی" کیتابی آرتیق بیر تمل کیتاب اولوبدور. گوندن- گونه استناد ائتدیگی سندلر ده داها آرتیق تثبیتلشیر.

بو کیتاب آذربایجان و ایران تورکلرینه بیر هویّت سندی اولدو؛ کیتاب چاپ اولدوقدا، تاریخی یالنیز آریالاردان بو طرفه ترسیم ائدن آریاپرست شوونیست‌لرین یوخوسو قاریشدی. او یازدی، یاراتدی، فداکارلیق درسی وئردی و میلّتی‌نین اورگینده اؤزونه ابدی یئر قازاندی.

پروفسور دوکتور زهتابی بؤیوک انسانی سجیّه‌لره مالیک اولاراق میثلی آز گؤرولن مختلیف تخصصلو عالیم ایدی. او، آذربایجان تورکجه‌سی‌نین و قدیم تورک دیلی‌نین اوزمانی اولاراق قدرتلی شاعیر و قلمی گوجلو یازیچی و تدقیقاتچی ایدی؛ عین حالدا آدلاری چکیلن تخصصلردن علاوه عؤمرونون سون ایللرینده دیلیمیزین دوزگون و یوکسک سویّه‌ده تاریخینی یازماقلا گؤستردی کی، عینی زاماندا مهارتلی تاریخ متخصصی ایمیش.

دوکتور محمد تقی زهتابی "ایران تورکلری‌نین اسکی تاریخی" کیتابینی یازماقلا تورکلرین، خصوصیله ایران‌دا یاشایان تورکلرین دیل تاریخی حقّینده یئنی بیر ایز بوراخدی. او، شرق و غرب عالیملری‌نین دیل تاریخی حاقّیندا یازدیقلاری اثرلرینی گئنیش سویّه‌ده و دریندن مطالعه ائدیب دونیا مدنیّتی‌نین تمل داشینی قویان سومرلرین دیلی ایله دیلیمیزین بیر کؤک و بیر اؤلچوده اولدوغوندان و هله آریایی‌لرین ایران اراضیسینه کؤچدوکلریندن نئچه مین ایل قاباق تورک کؤکلو خالقلارین آذربایجان‌دا یاشادیقلاریندان نئچه طرفلی و گوجلو سندلر ارائه ائتدی.

بؤیوک بیلگین بو کیتابینی یازماقلا هویّت بحرانینا دوچار اولانلاری بو بحراندان چیخارتدی. شوونیستلرین و پهلوی‌چیلرین تورکلره یازدیقلاری قوندارما تاریخینه سون قویاراق دیلیمیزین ایران‌دا ۷۰۰۰ ایللیک تاریخینی اوزه چیخاردیب تاریخلری هخامنش شاهلاریندان باشلایان و ۲۵۰۰ ایللیک تاریخه فخر ائده‌نلرین آلتین رؤیالارینا سون قویدو!

علمی‌نین درینلیگینه و یاشی‌نین چوخلوغونا باخمایاراق یئنی نسیل ایله اوتوروب- دورماغی، اونلارین چیگین‌لرینده اولان آغیر میلّی وظیفه‌لر اوزرینده مباحثه‌لره گیریشمه‌یی ضروری گؤردو؛ او، وار قوه‌سی ایله بیر میلّتین وارلیغی و هویتی اوچون چالیشدی. عؤمرونون سون دقیقه‌سینه قدر ده چالیشمادان دایانمادی.

دوکتور زهتابی‌نین اوتوز جیلددن چوخ شعر، حیکایه و دیلیمیزین قرامری حاقّیندا یازدیغی قیمتلی کیتابلاریندان علاوه اونون یالنیز «ایران تورکلری‌نین اسکی تاریخی» کیتابینی مطالعه ائدَن هر بیر کس دریندن اینانیر کی، بو بؤیوک عالیـم آذربایجان خالقی یانیندا و تورک دونیاسیندا ابدی یاشایاجاقدیر.

ابدی یاشاییشا مالیک اولا بیلن انسانلار عمومیتله عادی انسانلار کیمی یاشاماغا قناعت ائتمزلر، پروفسور زهتابی‌نین دا خصوصی یاشاییشی بئله اولموشدو.

۱۳۷۷-جی ایل سه‌شنبه گونو دی آیی‌نین بیرینجی گونو دوکتور زهتابی‌نین اؤلوم خبری بیر گونون ایچینده بوتون شهرلره یاییلدی. ادبیّات سئورلرین هامیسی بو آجی خبری ائشیتدی، اورکلر کؤورلدی، گؤزلر یاشاردی!

پنجشنبه، دی آیی‌نین اوچونجو گونو تورپاغا تاپشیریلاجاغینی هامی بیلدی. تهران‌دان، اورمیه‌دن، زنجان‌دان، اردبیل‌دن خصوصی ایله تبریزدن بوتون ادبیّات سئورلر گلمیشدیلر، بیر گون عرضینده بو آغیر ضایعه اوغروندا آنا دیلده اوزون پارچالاردا پلاکاردلار یازیلمیش و شبستره گتیریلمیشدی. هر شهردن، هر منطقه‌دن اورک سؤزلر سؤیله‌نیلمیشدی؛ آذربایجان‌ین فداکار اوغلو حاقّیندا.

عظمتلی تشییع جنازه زامانی، شبستر اهالیسی اوّلده ائله تصور ائتمیشدی عراق- ایران ساواشیندا دؤلت طرفیندن شهید اولانلارا حاضیرلانان مراسیمدیر بوگون، یالنیز یازیلان پلاکاردلار تامامی ایله تورکجه ایدی!

او گون شبستر اهالیسی بئله بیر فضانی گؤردوکده نه قدر بؤیوک بیر انسانی ایتیردیگینی یئنیجه باشا دوشموشدو!

آذربایجان‌ین سارسیلماز و فداکار اوغلو پروفسور دوکتور محمد تقی زهتابی، پنجشنبه دی آی‌نین اوچونجو گونو، ۱۳۷۷- جی هجری گونش ایلی (۲۴ دسامبر ۱۹۹۸ میلادی ایل)، اؤز سئونلرینی درین ماتمده غرق ائده‌رک تورپاغا تاپشیریلدی!

اونون جسمی بوگون آرامیزدا اولماسا دا توتدوغو مقدس یول اراده‌لی انسانلاریمیزین دوزگون یولو اولموشدور!

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 21-23
Telif Haqqı©Varlıq Dergisi

«سو دئییبدیر...» شاعیری‌نین آختاریشیندا

● رحمتلی حسن دمیرچی[1]



دوکتور دوزگون جنابلاری‌نین تام تورکجه‌میزده یازیلان *یولداش* آدینی داشییان درگیسی ۱۴۵۸-جی ایلده الیمه چاتدی. درگینی واراقلادیقدا «سو دئییبدیر منه اوّلده آنام آب کی، یوخ...» شعرینی باشا- باش اوخودوقدا ایللر بویو آختاردیغیمی تاپمیش اولدوم. شاعیرین آدینا باخدیقدا "م. شبسترلی" یازیلمیشدی.

شاعیری تاپماق اوچون ایکی دؤنه شبستر شهرینه گئتدیم. چوخلارینا سوروشدوم، آما تاپا بیلمه‌دیم. داها دوغروسو تانییان اولمادی.

اوچ ـ دؤرد آی سونرا عزیز یولداشیم اوستاد محمود شاطریان‌ی معالجه اوچون آلمان اؤلکه‌سینه آپارمالی اولدوق. ایلک اؤنجه ایستانبول شهرینده اؤیرنجی اولان دوکتور احد رستمزاده ایله تانیش اولدوق. ایکی گون سونرا احد بگ برلین شهرینده یاشایان و تحصیلله مشغول اولان حسین آقا اقدسی‌نین آدرسینی بیزه وئره‌رک، یولا سالدی.

برلین شهرینده بیر هفته سونرا حسین آقا اقدسی ائوینده موسیقی گئدیشاتیندا «سو دئییب دیر.....» شعرینی بیزیم اوچون اوخودو. من ده شاعیرین کیم اولدوغونو، هاردا یاشادیغینی سوروشدوم.

---

[1] حسن آذربایجان آدی ایله ده مشهور اولان بؤیوک صنعت و کولتور آدامی.

قوهوملاریمیزداندیر دئدی. اؤ بویوک اینسانین شخصیتی و کیم اولدوغونو آچیقلایاراق، آرتیردیر کی، بیر آی اولار تبریز بیلیم یوردوندا آذربایجان تورکجه‌سینی تدریس ائدیرلر. سئوینه‌رک آدرسینی آلدیم. سن دئمه، شبسترده آختاردیغیم شاعیر تبریزده یاشاییرمیش. تبریزه دؤندویوم گونون صاباحی دوکتور زهتابی ایله گؤروشوب، حسین‌ین مکتوبونو اونا وئردیم. بئله‌لیکله ۲۰ ایل سورن آردیجیل یولداشلیغیمیز باشلادی.

تخمیناً بیر ایله یاخین اونیورسیته‌ده تورک دیلینی تدریس ائتدی، سونرا کلاسلار قاپاندی. دوکتور زهتابی ایران‌ین دورومویندان آسیلی اولاراق ایران‌ی ترک ائتمک مجبوریتینده قالیر. آما تاسفله سینیری آشاندا توتوقلانیر و ۴ ایل حبسه محکوم اولور. تازا توتوقلاندا خوی شهرینه گئتدیم، چوخ چتینلیکله بیر قیسا ملاقات ائتدیم.

دوکتور زهتابی دوستاقدان آزادلیغا بوراخیلدیقدان سونرا گؤروشلریمیزین بیرینده اؤنری وئردی کی، آذربایجان ادبیاتی‌نین هوسکارلاری اوچون دیل، شعر، تاریخ اوزره هفته‌ده بیر گون اؤزل کلاسلار قورولسون. بو قیزیل سویو ایله یازیلان سؤز هامینی سئویندیره‌رک، تئزلیکله یئرینی آلیب کلاسلار باشلاندی. بو کلاسلار و یئری مسئله‌سینده بعضی ادبی توپلانتیلارین داوامیندا منیم نظریمده اولان بیر ادبی توپلانتی‌نین کیملر اولابیله‌جگینی گؤز آلتینا توتوب یادداشت گؤتورووردوم.

۱۳۷۱-جی ایلده «اوجاق» اؤنریسینی دوکتور زهتابی‌یه آچیقلایاراق، یادداشت ائتدیگیم یولداشلارین آدلارینی چکدیکده دوکتور اولدوقجا بگه‌نیب آلقیشلادی. بئله‌لیکله واختی اؤلدورمه‌دن بیرینجی ایچ اوتوروم تبریزین یاخینلیغیندا بیر باغدا گئچیریله‌رک، اؤنری بوتون یولداشلارین قبولونا دوشدو. کیملرین نه ایش گؤره‌جکلری آیدینلاشدی. او جومله‌دن قرارا گلدیک پروفسور زهتابی هر اوتورومدا اشتراکچیلار اوچون آذربایجان تاریخی حاقیندا بیلگیلر وئرسینلر. آیریجا اساسنامه یازیلماغی‌نین قراری قویولدو. بو ۱۱ نفرلیک توپلانتی سئوینجلرله باشا چاتدی. بیر نئچه اوتورومدان سونرا اساسنامه یئکونلاشاراق، «آذربایجان مدنیت اوجاغی» یاراندی و اوجاغین آیلیق توپلانتیلاری قراری قویولدو و دوام ائتدی.

۱۵/۰۳/۱۳۸۹

پروفسور زهتابی‌نین دیلینجه

خبر آلساز گیلئیلی‌یم فلکدن
کئچیب عؤمروم فیرتانالی کولکدن
ایشیق دونیا جنت کیمی یوردومدا
درد چولقادی آچیلارکن بلکدن.
دویدوم، نئچون یازیم یاساق دیل یاساق،
باشا دوشدوم یادلار قورموش کلکدن.
عؤمروم بویو قلم یاردیمیم اولدو،
کئچدیم بوتون خوش آرزیدان، دیلکدن.
قارشی دوردوم، یاد اؤنونده سینمادیم،
کئچدیم ائلین سوزگجیندن، الکدن.
خوشلوقلاری قنیم کسدیم اؤزومچون،
یازدیم- یازدیم؛ دوشمز اولدوم بیلکدن.
یاشام بویو بو سوچ قاخینجیم اولدو،
نه‌لر گؤردوم اؤد یاغدیران ملکدن.
فیتنه ملک اوزده گولدو جان دئدی،
تاریخ بویو خنجر ووردو کورکدن.
یاندیم؛ ائلین طالعینه آغلادیم،
حسرت قالدیم بیر یول گولم اورکدن.

حسن دمیرچی
۳۰/۱۰/۱۳۷۷

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 25-27
Telif Haqqı©Varlıq Dergisi

سنی وطنسیزله‌ییب وطن

● **یعقوب تقوی**[1]

او جواهردی، ائلین لوح وجودوندا یاشیر
کؤلگه‌دیر، یوردونا سرحدلری خالقی ایله آشیر
بیل کی، زهتابی یاشیر.



انسانلیق تاریخینده یوکسک شخصیتلرین حاقیندا سؤز آچاندا بو انسانلارین یوز ایلده بیر دونیایا گلمه‌سیندن دانیشیلار. لاکین زهتابی نه تک یوز ایلده بلکه اؤلکه‌لرین تاریخینده یاشانانلارین نادر اولانلارین سیراسیندا گلنلردن بیری‌دیر. اگر اونا تاریخیمیزین، دیلیمیزین پیغمبری آدینی وئریرسک هئچ ده یانیلمامیش اولاریق. او دیلیمیزین عظمتینی، قایدا قانونلارینی، اسلوبونو و دونیا دیللری سیراسینداکی یئرینی آیدینلاتدی و دیلیمیزی لهجه اولاراق خالقیمیزا یانسیدانلارا بو دیلین هانسی سویه‌ده اولدوغونو و فعل آچیسیندان و اکلر واسیطه‌سی ایله سؤز دوزلتمه قابیلیتی‌نین اینانیلماز درجه‌ده گئنیش اولدوغونو گؤسترردی.

زهتابی تاریخیمیزی مین ایللرین توز باسمیش داش یازیلاریندان، گؤمولموش کورقانلاریندان آختاریب، یاییملادیغی کیتابلاریندا خالقیمیزا چاتدیردی. تورک تاریخی‌نین مین ایلدن یئددی مین ایل اؤنجه‌یه دایاندیغینی قایناقلارلا ثبوت ائتدی. او تورک انسانینی یئنیدن کشف ائتدی و ایتیب باتان تاریخیمیزی اراده گوجو ایله جیلالاییب قیزیل واراقلارلا کؤچوروب

---

[1] مهندیس، تبریز.

گئجه-گوندوز چالیشماسی اساسیندا یئنی نسله سوندو. جسارتله سؤزونون اوستونده دایانیب قارشی چیخانلارین بورنونو یئره سورتدو. او زهتابی ایدی. او آجیلار چکه- چکه پولاد اولوب کؤزرمیشدی. سیرادان بیر انسان دئییلدی. او حبسلرده، سورگونلرده بؤیوموشدو. او خالقی‌نین دردینی ایچدن باشا دوشموشدو. سیبری‌ده بوتون ازیلن خالقلارلا یاناشی روس حاکیمتی‌نین چیرکین آسیمیله سیاسیتینی گؤرموشدو. او سؤمورگه سیاستی‌نین نه اولدوغونو و هانسی یوللارلا میلّتلری تام معناسی ایله محو ائتمه سیاسیتینی آنلامیشدی. بیر عؤمور اونون آچاری‌نین دالیسینجا گزمیشدی. سیبری‌دن اؤزبکیستانا، عراق‌دان تورکیه‌یه گئتدیگی هر یئرده ائلی‌نین دردینی دوشونموشدو. سؤزلرینده بونو دؤنه- دؤنه وورغولایاردی. او اؤزبکیستان‌دا اولدوغو زامان اورادا کؤچری عربلری تاپیب و اونلارین دانیشیقلاریندا تورک فعللری‌نین نئجه ایشله‌دیلمه‌سینی آنلاتاردی. او چالیشماقدان، یازیب یاراتماقدان باشقا هئچ بیر شئی دوشونمزدی.

اونونلا ایلک تانیشلیغیم اؤیرنجیلیگیمده تورکیه‌ده اولدوغوم زامان *بیرلیک* قزئته‌سی واسیطه‌سی ایله اولموشدو. میشوولو امضاسی ایله ۱۹۷۴ ایلینده. داها سونرالار دؤندوکدن سونرا دوستلارلا دیلیمیزین، کولتوروموزون و اجتماعی مسئله‌لری اوزرینده چالیشدیغیمیز زامان بو ایش اوچون پروفئسیونل بیریسینه گرک واردیر دئیه دوشوندوک. چوخ ایستکلی دوستوموز حسن آغا آذربایجان پروفسور زهتابی‌دن سؤز آچدی. چوخ سئویندیک. آنجاق نه یازیق کی، حبسده ایدی و آلتی آی گؤزله‌ملی ایدیک. نهایت زامان گلیب چاتدی. او آزادلیغا بوراخیلدی. چوخ سئویندیک. لاکین نئچه آی بیزه قوشولماغا زامان ایسته‌دی. دئییردی وضعیته باخیب اونا گؤره تصمیم توتمالییام. ایلک گؤروشوموز دوستلارلا بیرلیکده آبرسان‌دا منیم اوفیسیمده اولدو. دوکتورون دئییردی کی، من خالقیمیزدا هئچ بیر حاضیرلیق گؤرمورم. بیز گرک دیل، تاریخ، شعر و موسیقی کیمی ساحه‌لرده مدنیتیمیزین اوزرینده ایشه باشلایاق. نئچه گون سونرا ایلک دفعه مدنیت اوجاغی‌نین قورولماسی‌نین بینؤوره‌سی قویولدو و دوکتور «اؤزون گرک قوراسان ایندی اؤز سعادتینی» دئدی. اوجاق پروفسور زهتابی باشدا اولماقلا حسن آغا آذربایجان، حاجی آغا قزاقی، آقای آرش راد و بیر نئچه آیری یوردسئور انسانلا بیرلیکده دؤرد اساس چئوره‌سینده ایشه باشلادی. اساس مسئولیتلری دوکتور زهتابی اوستلندی. دیل و تاریخ کیلاسلارینی قوردو و هفته‌ده نئچه گون آغیر شرایطده شبستردن تبریزه گلیب ائله آبرسان‌دا گنجلره درس وئرمه‌یه باشلادی. گئجه- گوندوزونو بو یولا قویدو. گئجه‌لر درسلرین نوتلارینی حاضیرلاییب سحرلر اؤیرنجیلرله چالیشدی. قیسا زاماندا قیرخدان آرتیق اونیورسینه اؤیرنجیسی و گنج طرفیندن درگی و ژورنال تورک دیلینده حاضیرلانیب یاییملاندی. اونون بوتون ایشلری دوزگون تمللر اوستونده یارانادی. او هئچ بیر زامان "من" دئمه‌دی، "بیز" دئدی و بیر اؤزبک آتا سؤزونو اؤزونه اؤرنک اولاراق اصول گؤتورموشدو: «من منکه زوال، بیز بیزکه کمال». او قیسا بیر زامان ایچریسینده اوندان آرتیق کیتاب چاپا حاضیرلادی کی، اونلاردان اساس اولاراق «تورکلرین

اسکی تاریخی» ایکی جیلده‌دیر. بو کیتاب خالقیمیزین هویتینی، کیملیگینی و وارلیغینی بوتون دونیایا تانیدیردی.

زهتابی ساده‌جه دیل و تاریخ اوزمانی دئییل، عینی زاماندا یوکسک سویه‌لی میلّی شاعیرلریمیزدن بیری ایدی. اونون «پروانه‌نین سرگذشتی» شعر مجموعه‌سی، «تورکجه منیم سس بایراغیم» و آیری- آیری شعرلری بونون آیدین گؤسترگه‌سی‌دیر. او ناظیم حکمت کیمی بؤیوک شاعیر و یازارلارلا آیاق اولوب و هر ساحه‌ده اوزمانلیق درجه‌سینه چاتمیشدی. لاکین بوتون بونلارا باخمایاراق او چوخ متواضع، متین و غایت دقتلی عینی حالدا صبیرلی بیر انسان ایدی. هر هانسی بیر سوال و یا خود اشکال سوروشولدوغو زامان ساعاتلارجا اونو جاوابلاندیرماغا وقت صرف ائدردی. گنج چاغلاریمدی. شعر ساحه‌سینده اوندان سورغولاریم اولدو و بیر نئچه شعر اوخودوم. منیم دفتریمی آلیب نئچه گونلر اونون اوزرینده چالیشیب بوتون نقصانلاری قورشون قلم ایله ایضاح ائتمیشدی. او یاشدا عالیمین اونلارجا مشغله‌سی ایله بو ایشه قول قویماسی هر کسین گؤره‌بیله‌جگی ایش دئییل. آنجاق او تکجه بیلیم ساحه‌سینه زامان آییراردی. کیمسه‌یه اذیتی کئچن بیریسی دئییلدی. چوخ چتین بیر یئره قوناق اولاردی و تکیه کلامی "آی جانیم، بو ایشلری بوشلایین" ایدی. هیهات بیر ده دهرین آناسی ائله اوغوللار دوغا. روحو شاد یئری اوچماق اولسون.

قارا قیش سنله باشلادی
اؤرتو سالیندی ائل باغینا
قان آخدی میشوو داغینا
و سنی ایچدیلر
سوسامیش هوسلرینه
هئچ ده سورمادان
حیاتی گؤزلرینده یومدون
ووقارین هجالارا بؤلوندو
تاریخ آرتیق واراق یئدی
درد صایفاسیندا
سؤزلر ائل تکی آندیلار
ایزلرینده وطن کؤزردی
سنی وطنسیزله‌ییب وطن
دور دا یاز اونو.

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 29-37
Telif Haqqı©Varlıq Dergisi

پروفسور دوکتور زهتابی‌نین عراق‌داکی یارادیجیلیغی

● رضا همراز[۱]



رحمتلی پروفسور محمد تقی زهتابی و یا اوز ایستگی ایله دئسک کیریشچی، ایران تورکلری‌نین ان معتبر تورکولوقلاریندان، شاعیرلریندن، یازیچیلاریندان، تاریخچیلریندن، دیلچیلریندن و آراشدیریجیلاریندان اولموشدور. اونون بو گونه قدر بیر قوجاق دگرلی اثرلری گون ایشیغینا چیخسا دا هله بیر او قدری ده چاپ اولمامیشدیر. آرزی ائدیریک اونلارین چاپی ایله گؤزلریمیز داها ایشیقلانسین.

اوستاد زهتابی اوز آنا دیلینده بیر اوزمان اولدوغو حالدا فارس، روس، عرب و فرانسیز دیللرینه ده تانیش بیریسی ایدی. او داهی‌نین یاشایشینا دایر بیر چوخ مقاله یازیلمیشدیر. آنجاق اونون اؤز یازدیغی ترجمه حالینی اؤز قلمی ایله اوخویوب داها سونرا اونون عراق‌دا یاشادیغی سککیز ایل مدتینده یاراتدیغی اثرلره اؤتری باخماغیمیز منجه بیر او قدر ده یئرسیز اولماز . البته زهتابی معلمین کیتابلاریندان باشقا، آیری یئرلرده چاپ اولان شعر کیتابلاری‌نین بیر نئچه صحیفه‌سینده باغدادا سؤیله‌نیلن شعرلره ده راستلاماق اولار. او داهی‌نین بو قونوداکی میراثیندان دانیشماقدان اؤنجه داها گؤزل اولار هله دیری ایکن شخصاً یازدیغی یاشایشی‌نین بیر سیرا آلچاق- اوجالاری ایله ده تانیش اولاق.

---

[۱] غروب درگیسی‌نین باش یازاری، تبریز. ایمیل: rhamraz@gmail.com

«آدیم محمد تقی، فامیلیم زهتابی /کیریشچی/دیر. ۱۳۰۲ (۱۹۲۳ م.)-جی ایلده آذر آیی‌نین ۲۲-سینده جنوبی آذربایجان‌ین مرکزینده یئرلشن "شبستر" شهرینده صنعتکار کیریشچی عایله‌سینده دوغولدوم. آتامین آدی محمدعلی و آنامین آدی سعادت ایدی. شبسترین بو کیریشچی عایله‌سی‌نین بیر قولو ۲۰۰ ایل اوّلدن شمالی آذربایجان‌ین "شکی" شهرینده آتامین آتاسی‌نین آتاسی "کیریشچی کاظیم‌ین" اولادی آدی ایله یاشامیش و یاشاییرلار. ۱۳۰۸-جی ایلده ۶ یاشیمدا اولاندا اصراریملا بؤیوک باجیم صدیقه ایله قرآن اوخوماق اؤیره‌دن محله مکتبینه گئده‌رک آز زاماندا الیفبانی اؤیرنیب، او زامانلار هر یئرده، او جمله‌دن عمیمین کیتابخاناسیندا بول اولان تورکجه ناغیل کیتابلارینی اوخوماغا باشلادیم و قیش گئجه‌لری بو کیتابلاری عایله و قونشو خانیملارا اوخویاردیم. بیر ایل سونرا اسکی اصولدا اولان و فارسجا اؤیره‌دن میرزه ابراهیم‌ین مکتبینه گئتدیم. ۱۳۱۰-جو ایلده شبسترین رسمی دؤلتی "گلشن راز" آدلی ابتدایی مکتبینه گئده‌رک، بیرینجی کیلاسدا اوخودوم. یایدا خصوصی کیلاسدا اوخویاراق تازا اوخو ایلینده اوچونجو کیلاسدا اوخودوم. ۱۳۱۵-جی ایلده اورانی بیتیردیکدن سونرا ایکی ایل مادی امکان اولمادیغیندان اوخوماغی ترک ائدیب آتا - بابا ایشیم اولان کیریشچی‌لیکده هابئله باغ و اکین ایشلرینده چالیشدیم. ۱۳۱۷-جی ایلین یاییندا آتامین دوستلاری و تجارت ایشداشلاری قوناق گلمیشدیلر. اونلار اوخوماق ایسته‌دیگیمی تبریزده اورتا مکتبده اوخوماقدا اولان بؤیوک قارداشیم یوسف‌دن بیلیردیلر. اونلار دئدیلر کی، تبریزده اورتا مکتبی اوخوماق اوچون اونلار قاییدارکن اونلارلا بیرلیکده آتام بیلمه‌دن تبریزه قاچیم. بئله ده ائتدیم و عمی اوغلوم غلامرضا ایله بیرلیکده همین قوناقلارلا قاتارلا تبریزه قاچدیم و اورادا تربیت خیاوانیندا یئرلشن و مشروطه انقلابی زامانی بیر انجمن بیناسی اولموش ائوده چالیشان "فیوضات" مکتبینده اوخوماغا باشلاییب ۱۳۲۰-جی ایل اورانین دوققوزونجو کیلاسینی /بیرینجی سیکل/ رسمی دؤلتی امتحانلا اعلاچی بیتیردیم. همین ایلین شهریور آیی‌نین اوچونده متفق اوردولاری ایران‌ی توتدولار. سیاسی آتموسفر دگیشیلدی و سیاسی حزبلر یاراندی. من ایکی ایللیک معلم یئتیشدیرن مکتبه /دانشسرا/ قبول اولوب دؤلت حسابینا اوخودوم. همین شهریور آیی‌نین اونوندا تبریزده حاجی میرزه علی شبستری‌نین رهبرلیگی ایله آنا دیلینده *آذربایجان* قزئتی ۴۸ نمره یاییناندی. بو قزئتله حیاتیمدا ایکینجی دفعه اولاراق آنا دیلیمده اوخوماغا آلیشدیم و بیر نئچه فارسجا شعریمی اوندا چاپ ائتدیردیم. بو ایللرده آخشاملار تبریزین کاتولیک کلیساسیندا فرانسه دیلی و تبریز اوستادلاری‌نین مکتبلرینده عربجه اؤیرندیگیم اوچون دانشسرا رهبرلری‌نین اصرارینا رغما دانشسرادا پانسیون اولماییب اورادان آیدا ۸ تومن آلاراق گئچیندیم. دانشسرانی بیتیردیکدن سونرا بؤیوک قارداشیم کریم دانشسرادا اوخودوغوم اوچون

دؤلته اولان بورجونون بیر ایلینی وئره‌رک من تبریزده فردوسی آدینا تام اورتا مکتبی ۱۲-جی صینیفی ادبی بؤلومونو قورتاریب دیپلوم آلدیم. اونیوریسته‌ده اوخوماق آرزوسو منی برک ناراحات ائدیردی. آنجاق ایران‌دا یالنیز تهران‌دا بیر اونیوریسته وار ایدی و اورایا گئتمه‌یه مادی امکانیم یوخ ایدی. بیر ایله قدر اورتا مکتبلرده معلیم اولدوم. ۱۳۲۴-جو ایلین یاییندا تورکیه حکومتی ایستانبول‌دا اوخوماق اوچون ۴۰۰ نفر و سووئت آذربایجان‌ی دؤلتی باکی‌دا اوخوماق اوچون ۴۰۰ نفر گنج آپاریردیلار. من ده اوخوماق اوچون گئتمک ایسته‌دیم آما دؤلته بورجلو اولدوغوم اوچون تبریز معاریف اداره‌سی گئتمه‌ییمه مانع اولدو. همان ایل آزاد فرانسه حکومتی بیروت‌دا اوخوتدورماق اوچون یئتدی نفر گنج آپاریردی. فرانسیز دیلی معلمیم "مسیو ژوزف قویندیر"ین یاردیمی ایله من ده بیروتا گئتمک اوچون عریضه وئردیم. اما "مسیو ژوزف قویندیر"ین دئدیگینه اساسا دؤلتلی بالالاری قویمادیلار کی، منه نؤبه چاتسین. ۱۳۲۳ و ۱۳۲۴-جو ایللرده تبریزده *فریاد* و *خاور نو* قزئتلری چیخیردی. اونلاردا فارسجا شعرلریم و فرانسیز دیلیندن فارسجایا ائتدیگیم ترجمه‌لر چاپ اولدو. ۱۳۲۴-جو ایل شهریورین اوچوندن *آذربایجان* قزئتی آنا دیلینده یاییناندی. بو قزئت واسطه‌سی ایله اوچونجو و سون دفعه اولاراق آنا دیلیمده اوخویوب یازماغی اؤیرندیم و اوندا مقاله‌لر یازدیم. همین ایل "جوانلار" تشکیلاتی‌نین اورقانی *جوانلار* قزئتینی رهبرلیک ائده‌رک اوندا مقالهلر و شعرلریم چاپ اولدو. ۱۳۲۵-جی ایل آذرین ۲۱-ینده شاه اوردولاری تبریزه گلدی. مرتجعلر آنا دیلیمده اولان کیتابلاری اودلادیلار. تبریزده گیزلی اولدوغوم حالدا وحشیلیگه قارشی شعر یازیب خالق داخلینده یایدیم (سو دئییبدیر منه اوّلده آنام آب کی یوخ). ۱۳۲۶-جی ایلین سونلاریندا قاچاق تهرانا گئتدیم و نئچه آی سونرا عالی تحصیل آلماق هدفی ایله قاچاق سووئتلر اتفاقینا گئدرکن توتولوب کلات نادری و مشهد شهرلرینده زیندانی اولدوم. آزاد اولدوقدان سونرا مشهدین قند کرخاناسیندا نئچه آی ایشله‌ییب پول توپلایاراق ۱۹۴۸-جی ایلین دسامبر آیی‌نین ۲۸-ینده عشق‌آباد یولو ایله سووئتلر اؤلکه‌سینه قاچدیم. بو گونلر عشق‌آباد زلزله‌دن تام ویران اولموشدو. سرحدده و ماری «مرو» شهرینده زیندان اولاراق دموکرات فرقه‌سی رهبرلری و حزب توده‌نین گؤستریشی ایله سرحدی پوزماق قانونونون ان چوخ جزاسینا اوچ ایل زیندانا محکوم اولدوم و کراست نوورسکی‌نین اجباری ایش زیندانیندا ایشله‌دیم و سونرا جارجو، تاشکند «تاوادا» شهری اجباری ایش دوستاقخانالاریندا مئشه‌لرده ایشله‌دیم. اورادان باکی‌دا اولان دوستوم حمید محمد زاده‌یه مکتوب یازیب وضعیتیمی بیلدیردیم. اونون اقدامی نتیجه‌سینده بیر ایل تئز زیندانداندان آزاد اولاراق "دوشنبه " شهرینه (او زامان استالین آباد) گؤندریلدیم . اورادا ۱۹۵۱-جی ایللر سیاسی مکتبده اوخویاراق دانشگاها گیرمک ایسته‌دیم لاکین اورتا

مکتب دیپلوموم اولمادیغیندان مومکون اولمادی. بیر ایل توخوجو کرخاناسیندا ایشله‌ییب آخشاملار اورتا مکتبین سون کیلاسلارینی بیتیریب دیپلوم آلیب باکی اونیوریسته‌سینه گیرمک اوچون باکی اونیوریسته‌سینه گؤندردیم. بیر آی سونرا اورادان مثبت جواب آلدیقدا باکی‌یا گلیب اونیورسیته‌نین ۵ ایللیک آذربایجان دیل و ادبیاتی فاکولته‌سینده اوخوماغا باشلادیم. بو مدتده حزب توده و دموکرات فرقه‌سی‌نین ایچ اوزونو تانییاراق نهایی شکیلده اونلاردان اوزاقلاشدیم. فاکولته‌ده اوخویان زامان بئشینجی کورسون اولینده همین اونیورسیته‌نین شرقشناسلیق فاکولته‌سینده عرب دیلی و ادبیاتینی تدریس ائده‌ک عرب ادبیاتی اوزره ابو نواس‌ین حیات و یارادیجیلیغی موضوعسوندا مدافعه ائدیب دوقتورلوق و نئچه ایل سونرا دوچنتلیک دیپلومو آلدیم. حزب توده و عمومیتله کومونیزمین ماهیتینی تانیدیقدان سونرا سووئتلر اتفاقیندان چیخماغا چالیشیردیم. عراق‌دا عبدالکریم قاسیم ایش باشینا گلدیکده، سووئتلر اتفاقیندان چیخما امکانی اولدو. ۱۳ ایل چالیشدیقدان سونرا نهایت ۱۹۷۱-جی ایلین یاییندا احمد حسن البکر زامانیندا عراق‌ین مسکوواداکی سفیری "شاذل طاقه"نین یاردیمی ایله عراقا گئتدیم. ۲۴ ایل سووئتلر بیرلیگی‌نده او جمله‌دن باکی‌دا اولدوقدا آز اثرلر و شعرلر یازمادیم. لاکین حزب توده‌نین مانع اولماسی نتیجه‌سینده بیرجه کلمه ده چاپ ائتدیره‌بیلمه‌دیم. لاکین بوتون الیازمالاریمی عراق سفیری شاعیر شاذل طاقه‌نین یاردیمی ایله سووئتلر اتفاقیندان چیخاردیب عراقا آپاردیم. من عراق‌دا گؤردویوم علمه قیمت وئرمگی و احترامی هئچ بیر یئرده گؤرمه‌دیم. نئچه آی عراقا گلدیگیمدن سونرا باغداد اونیورسیته‌سینده شرقشناسلیق بؤلومونون مسئولو عالیم دوستوم حسین علی محفوظ منیم باغدادا گلدیگیمی بیلیب، ایشداشلیغا دعوت ائتدی. تقریبا ۸ ایل بورادا فارس دیلی و قدیم تورک دیللرینی تدریس ائتدیم و عربجه فارس دیلی درسلیگینی یازدیم. باغداد اونیورسیته‌سینده تدریس ائتمکله یاناشی عراق حکومتی‌نین ایران شاهی ایله مخالیف اولماسیندان استفاده ائده‌رک ناهاردان سونرالار عراق حکومتی‌نین ایستگی و یاردیمی ایله مختلیف ایران میلتلری‌نین ایران‌دان خاریجده اولان میلّی تشکیلاتلارینی بیر آرایا توپلایاراق بئش دیلده *اتحاد یولو* قزئتینی (تورکجه، فارسجا، کوردجه، عربجه، بلوچجا) نئچه ایل بوراخدیم. تاسف ائدیرم کی، بو مدتده گیلک و تورکمن انقلابچیلاریندان تاپا بیلمه‌دیم تا قزئتی اونلارین دا دیللرینده بوراخابیلم. بو بئش ایران میلّتلری انقلابچیلاری و تشکیلاتلاری ایله قارداشلیق، امکداشلیق و فیکیرداشلیق سایه‌سینده نئچه ایل سوره‌سینده همین بو بئش ایران میلتی دیلینده آخشاملار رادیو وئریلیشی ده تشکیل ائتدیم. عراق‌دا یاشادیغیم سککیز ایل سوره‌سینده بیر طرفدن تورک تاریخی، دیلی، ادبیاتی، میلتلری، خالقلاری، یاشادیقلاری اؤلکه‌لر و یئرلری باره‌ده او

جمله‌دن ایران تورکلری‌نین سایی، یئرلری، تاریخی، دیلی، لهجه‌لری و ادبیاتی باره‌ده کومونیزمین سووئتلر اتفاقیندا یاراتدیغی محدود و غلط تصوروم تامامی ایله آرادان گئدیب، اونلارین یئرینی واقعی و علمی حقیقتلر توتدو. دیگر طرفدن دیوان لغات الترک، قوتادغو بیلیک اثرلری و اورخون یئنی‌سئی آبیده‌لری باره‌ده یازیلمیش اثرلرله تانیشلیق سایه‌سینده تورک دیلی‌نین اسکی‌لیگی، قدرتی، لهجه‌لری ایله قیسما تانیش اولدوم و بو باره‌ده‌کی محدود فیکیرلریم تکمیللشدی...»

بئله‌لیکله اوخویوب بیلدیک کی، مبارز انسان رحمتلی پروفسور محمد تقی زهتابی ۱۳۵۰-جی ایل چوخ چالیشدیقدان سونرا روسون جایناغیندان قورتولوب، جانینی گؤتوروب عراقا قاچیب، باشکنده باغداد اونیورسیته‌سی‌نین «قسم الدراسات الشرقیه» شعبه‌سینده فارسجا، عربجه و تورکجه‌میزین تدریسینه جان آتیب، بو دیللرده ایسه بیر سیرا دگرلی اثرلر اؤزوندن یادگار قویموشدور. آذربایجان‌ین غیرتلی، مفکوره‌لی و چیخارلی اوغلو زهتابی باغداد اونیورسیته‌سینده عربجه درس دئدیگی زامان اورادا ۴۵۰ صحیفه‌دن چوخ « القواعد الفارسیه» آدلی فارسجانین قرامری حاقدا سامباللی بیر اثر یازیب، همین اونیورسیته اونون چاپینا جان آتیب و نهایت چاپ ائدیر. بو اثر چاپ اولدوقدان سونرا باغداد اونیورسیته‌سی بو اثرین یازیچیسینا فخری پروفسورلوق درجه‌سینی اعطا ائدیر. بئلنچی چالیشمالارین قارشیسیندا او اؤز خاطیره‌لری‌نین بیر یئرینده عراق‌دا چاپ اولان کیتابلاری‌نین بیرینی اؤز آدینا چاپ ائتدیرن آرخاداشیندان گیلئیله‌نیب بو سطیرلری ده یازیر: ... بغداددا بو کیتابی یازارکن، بعضی عراقلی آذریلردن آنا دیللری‌نین صرفینی اؤیرنمک و یازدیغیم همین بو کیتابی عراق آذریلری اوچون ده چاپ ائتدیرمگی چوخ لازیم و ضروری حساب ائتدیلر. بونا گوره ده، اونلارین ایستکلرینی یئرینه یئتیره‌رک، ائویمده آنا دیلیمیزین صرفینی اونلارا تدریس ائتدیکدن سونرا دیکته ائتدیم یازدیلار. عراق تورکلری‌نین اؤز ادبی اثرلریندن بو قایدا کیتابی‌نین میثاللارینی دا اؤزوم سئچیب تکمیللشدیردیم. لاکین بو کیتابی سونرا شاگیردلریمدن بیری اولموش عراق "اعلام" ناظیرلیگینده "قسم الترکمانی" شعبه‌سی‌نین رییسی اولان شخص اؤز آدینا چاپ ائتدیردی. او وقته قدر عراق‌ین تورکمن کندلری و شهرلری‌نین مکتبلرینده تورکمن اوشاقلاری، بئشینجی کیلاسا قدر یالنیز آنا دیللرینده اوخویوردولار. اونلارین اوز ابتدایی مکتبلری اوچون آنا دیلی کیتابلاری وار ایدی. عراق‌ین «وزارت اعلام»یندا «قسم الترکمانی»نین رییسی اولان هامان شخص، «تورکمن شعبه‌سی مدیری آدیندان»، هابئله «بوتون عراق تورکمنلری آدیندان» عراق دؤلتی‌نین ان عالی حکومت اورقانی اولان «مجلس قیاده الثوره»یه (انقلابین رهبرلیک مجلسی) یازدی کی، عراق تورکمنلری ایسته‌ییرلر کی، تورکمن اوشاقلاری ابتدایی بئشینجی صینیفه قدر اؤز آنا دیللرینده اوخوماق عوضینه تامامیله و یالنیز عربجه اوخوسونلار تا بو دیلی یاخشی اؤیرنسینلر. بو تکلیف «مجلس قیاده الثوره» طرفیندن تصویب اولدو و او گوندن عراق‌ین تورک

اوشاقلاری اؤز آنا دیللرینده اوخوماقدان محروم اولدولار. عرب شوونیزمی و بعث حزبی‌نین آلتی اولان عراق تورکمنلری‌نین بو میلّی دوشمنی ع. ب. [۲] ایدی.»

گوندن - گونه علمی ساحه‌لرده پارلایان زهتابی سککیز ایل عراق‌دایکن بو اثرلری اورادا چاپ ائتدیره‌بیلمیشدیر.

پروانه‌نین سرگذشتی:

منجه «پروانه‌نین سرگذشتی» ائله رحمتلی زهتابی‌نین اؤزونون باشیندان گئچنلر یا خود سرگذشتی اولموشدور. نییه کی، او پروانه سایاق اؤزونو اودا -کؤزه ووروب، یانمیشسا دا خالقینا همیشه ایشیقلار ساچمیشدیر. همین اثر ۷۸ صحیفه‌دن عیبارت اولوب، گویا ۱۹۷۲-جی ایلده اورادا نشر اولموشدور. بو شعر کیتابی‌نین ان معروف و دئمک دیللر ازبری اولان شعرلریندن ایکینجی ۲۱ آذردن بیر گون سونرا تبریزده سؤیلنمیش «سن اوسان، من ده بویام» شعری‌دیر کی، بو گونه قدر هارداسا مینلر دؤنه ایستر اؤلکه‌میزده، ایسترسه ده اؤلکه‌میزدن قیراقدا ماراقلا چاپ اولموشدور.

"سو" دئییبدیر منه اولده آنام "آب" کی، یوخ
"یوخو" اؤیرتدی اوشاقلیقدا منه، "خواب" کی، یوخ
ایلک دفعه کی، "چورک" وئردی منه "نان" دئمه‌دی
ازلیندن منه "دوزدانه"، "نمکدان" دئمه‌دی
آنام "اختر" دئمه‌ییبدیر منه، "اولدوز" دئییب او
سو دوناندا دئمه‌ییب "یخ"دی بالا، "بوز" دئییب او
"قار" دئییب "برف" دئمه‌ییب، "دست" دئمه‌ییب "ال" دئییب او
منه هئچ واخت "بیا" سؤیله‌مه‌ییب، "گل" دئییب او
یاخشی خاطیرلا ییرام یاز گونو آخشام چاغیلار
باغچانین گون باتانیندا کی، ایلیق گون یاییلار
گل دئیردی "دارایییم باشیوی ای نازلی بالام
گلمه‌سن گر باجیوین آستاجا زولفون دارارام"
او دئمزدی کی، "بیا شانه زنم بر سر تو
گر نیایی بزنم شانه سر خواهر تو"
بلی، داش یاغسا دا گؤیدن، سن او سان، من ده بویام
وار سنین باشقا آنان، واردی منیم باشقا آنام
اؤزومه مخصوص اولان باشقا ائلیم واردی منیم

[۲] شخصین آدی طرفیمیزدن قیسادیلمیشدیر. (وارلیق)

ائلیمه مخصوص اولان باشقا دیلیم واردی منیم
ایسته‌سن قارداش اولاق، بیر یاشایاق، بیرلیک ائدک
وئریبن قول-قولا، بوندان سورا بیر یولدا گئدک
اوّلا اؤزگه کولکلرله گرک آخمایاسان
ثانیا، وارلیغیما، خالقیما خور باخمایاسان
یوخسا گر زور دئیه‌سن، ملتیمی خوار ائده‌سن،
گون گلر، صفحه چؤنر، مجبور اولارسان گئده‌سن.

۱۳۲۵/۹/۲۲ تبریز

آیا زبان فارسی به زبان ملل دیگر ایران برتریت دارد؟

فارسجا یازیلمیش بو اثرده سایین آراشدیریجی، قان سوران شاهلارین، خصوصی ایله پهلوی‌لرین شوونیستی حرکتلریندن پرده گؤتوروب، گؤزل و دگرلی بیر تحقیق ارائه وئرمیشدیر. همین اثر بیر نئچه دؤنه ده ایران‌دا یئر آلتی شکلینده چاپ اولموشدور.

جنایات ۲۵۰۰ ساله شاهان:

بو اثرده دئمک اولار کی، اوستده‌کی اثرین تکمیلی یا آردی‌دیر. یازیچی چالیشمیشدیر اثر کیچیک اولورسا دا، دگرلی سؤزلر ارائه وئرسین. همین اثرده بیر نئچه دؤنه انقلابدان سونرا یئر آلتی شکلینده ایراندا چاپ و خالق ایچره پایلاشیلمیشدیر.

هستی نسیم:

هستی *نسیم*-ده پروفسور زهتابی‌نین بیر سیرا غربتده سؤیلنمیش فارسجا شعرلری ایله اوز- اوزه دایانیریق. بو کیتابدا فارسجا شعرلری ایله کی، داها چوخ شاعیر زهتابی‌نین سئودیگی حماسی شعرلر ایله لیریک شعرلری احتوا اولونورلار، تبریزلی پروفسور مینائی‌نین گؤزل طرحلری ایله راستلاشماق اولور. ۱۱۷ صحیفه‌دن عیبارت اولان بو اثر ۱۳۵۳-جو ایل «ایران تورک روشنفکرلری جمعیتی‌نین نشریه‌لری» نشری سیراسیندان یاینلانمیشدیر.

بختی یاتمیش:

اوجسوز - بوجاقسیز فولکولورروموزدان آلینمیش بیر حکایه‌دن عیبارت اولان اثر دیر کی، جزوه شکلینده چاپ اولموشدور. جیبی قطعینده اولان بو اثر ده تکرار ایران‌دا نشر اولموشدور.

باغبان ائل اوغلو:

شاعیر زهتابی بورادا مشروطه انقلابی‌نین قورخو بیلمز سردارلاریندان بیریسی اولان شهید حسین خان باغبان‌ین حیاتینی گؤزلجه شعره چکمیشدیر. بو دگرلی اثر انقلابدان سونرا اوفست

اولاراق بیر دؤنه چاپ اولسا دا، داها سونرالار بیر سیرا شکیللر و یئنی اصلاحلارلا تکمیللشیب ۳۲۴ صحیفه‌ده یئنیدن تبریزین محق نشری واسطه‌سی ایله ۱۳۷۴-جی ایل ماراقلا بیر دؤنه ده تکرار نشر اولموشدور.

آیلیق *اتحاد یولو* درگیسی:

آدیندان بللی اولدوغو کیمی آیلیق درگی ایدی. همین درگی‌نین آردینی رحمتلی زهتابی آلمانیادا یاشادیغی ایللر «ارک» آدی ایله بوراخابیلمیشدیر. تاسوفله بو درگی‌نین نئچه سایییدا چاپ اولدوغو کیمسه‌یه آیدین اولامیشدیر. آرزی ائدیریک اونون سایییلاری‌نین اله گلمه‌سی ایله بو دویون ده آچیلابیلسین.

القواعد الفارسیه:

۴۵۴ صحیفه‌دن عیبارت اولان بو اثرده گویا پروفسور زهتابی‌نین اول - آخیر عربجه کیتابی یا خود اثری دیر کی، باغداد اونیورسیته‌سی‌نین همتی ایله چاپ اولوب. اورادا بیر درس کیتابی اولاراق تدریس اولونارادی. باغداد اونیورسیته‌سی بو دگرلی اثره گؤره حاقلی اولاراق دوکتور زهتابی‌یه پروفسورلوق درجه‌سینی اعطا ائتمیشدیر. یازیچی بیر نئچه ایل بو اثری باغداد اونیورسیته‌سینده شخصاً اوزو درس وئرمیشدیر.

البته سایغیلی یازیچی زهتابی معلیمین «افسانه‌دی شمشیره دایانمازسا آزادلیق» منظومه‌سی ۱۳۵۶-جی ایل باغداد شهرینده یارادیلمیشدیر. آنجاق «بختی یاتمیش»پوئماسی باکی‌دا قوشولوب، باغداد دا ایسه چاپ اولموشدور. هابئله اونون «سارا و محمد» کیمی دگرلی اثری ده ۱۹۷۸-جی ایل باغداد شهرینده قوشولموشدور. همین اثر نمایشنامه شکلینده یازیلیب اونلارین بیر رولونو ایسه یازیچی اوزو شخصاً عهده‌سینه آلمیشدیر. بو کیتاب دا خوشبختلیکله ۸۹-جو ایل تبریزده گون ایشیغینا چیخاردیریلمیشدیر. آرتیرمالییام، اوستاد زهتابی‌نین حکایه‌لر توپلوسوندان عیبارت اولان «قوی اولسون اون» کیتابی‌نین یاریدان چوخ حکایه‌لری باغدادا یازیبا آلینمیشدیر.

قایناقلار و ایضاحلار:

۱- «پروانه نین سرگذشتی» منظومه‌سی ایلک دفعه ۱۳۴۹-جو ایلده (۱۹۷۰) پروفسور دوکتور محمدتقی زهتابی‌نین عراق‌دا اقامت و تدریس ائتدیگی دؤنمده، باغدادا الحوادث مطبعه‌سینده باسیلمیشدیر.

۲- ایران‌داکی باشقا دیللرله مقایسه‌ده فارسجانین قونومونو اینجه‌له‌ین «آیا زبان فارسی به زبان ملل دیگر ایران برتریت دارد؟» کیتابی، اؤنجه دوکتور زهتابی‌نین عراق‌دا اقامت و تدریس ائتدیگی دؤنمده، ۱۳۵۴-۱۳۵۰-جی ایللر آراسیندا (۱۹۷۵-۱۹۷۱) باغداددا یاییملانمیشدیر.

۳- «جنایات ۲۵۰۰ ساله شاهان» کیتابی، ۱۳۵۴-۱۳۵۰-جی ایللر آراسیندا (۱۹۷۵-۱۹۷۱) باغداددا یاییملانمیشدیر.

۴- فارسجا شعر کیتابی اولان «هستی نسیم» ۱۳۵۳-جو ایلده (۱۹۷۴) باغداددا «ایرانلی تورک آیدینلار جمعیتی» طرفیندن یاییملانمیشدیر.

۵- «بختی یاتمیش» کیتابی ۱۳۵۲-جی ایلده (۱۹۷۳) عراق‌ین نجف شهرینده باسیلمیشدیر.

۶- تورکجه «باغبان ائل اوغلو» منظومه‌سی ایلک دفعه ۱۳۵۷-جی ایلده (۱۹۷۸) باغداددا طوفان یاییناری طرفیندن یاییملانمیشدیر.

۷- «اتحاد یولو» درگیسی‌نین تملی، دوکتور زهتابی نین عراق‌دا اقامت ائتدیگی دؤنمده (۱۳۵۰-۱۳۴۰ / ۱۹۷۰-۱۹۶۰) آتیلمیش و باغداددا یاییملانمیشدیر.

۸- فارسجا دیل بیلگیسی کیتابی اولان «قواعد الفارسیه» ۱۳۵۲-جی ایلده (۱۹۷۳) نجف شهرینده الآداب مطبعه‌سینده باسیلمیشدیر.

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 39-42
Telif Haqqı©Varlıq Dergisi

دکتر زهتابی و اولین کتاب ترکیِ من

● **مریم نیک بخت**[۱]



قلم در دست گرفتن و نوشتن در مورد اسطوره آذربایجان، مرحوم پروفسور زهتابی جسورانه‌ترین عمل من در طول حیات بوده و به راستی نوشتن مکرر تمام سختی و تبعید و آنچه زیسته‌اند، چیزی جز قلم فرسایی نیست. چرا که نوشته‌ها هیچ کدام، یک از هزار آنچه که بوده را بیان نتوانند کرد.

سال‌های تبعید در سیبری و دوشنبه که اتهامش حق‌خواهی بود، یا سال‌های زندان به جرم عشق به زبان مادری، سال‌های غربت، مهاجرت و تنهایی تحمیل شده از سوی حکومت پهلوی و یا سال‌های دوری از خانواده،

کدام را شرح می‌توان داد که غم و رنج زیسته استاد را به درستی تفسیر نماید. رنجی که با ذره ذره وجودش لمس می‌کرد، از به بند کشیدن زبان، هویت و فرهنگ سرزمینش، از اینکه کودکی در مدرسه تحقیر می‌شود،

و مادری در خانه، از سکوت و گنگ ماندن قشر تحصیل کرده و تمام آنچه که روح آزادی‌خواهش را زخم می‌زد.

ایشان درمان این زخم را تنها در مطالعه، تحقیق، تدریس و آگاهی یافت.

[۱] کارشناس ارشد روانشناسی؛ ایمیل: maryam.nikbakht1983@gmail.com

نوشته‌های بی‌نظیرش در زمینه‌های تاریخی و ادبی آنقدر پربار است که گاه فراموش می‌کنیم شاعری کم نظیر نیز بودندکه در زمره شاعران برتری همچون استاد شهریار جای دارند.

شعرهایی با مضامین عمیق و گاه اعتراضی همانند شعر معروف «سو دئییبدیر منه اولّده آنام، آب کی یوخ...» شعری که در ادبیات شفاهی مردم آذربایجان تثبیت شده است.

ایشان در طول حیات خویش برای حفظ زبان و هویتشان تلاش‌های بی‌وقفه و فداکاری‌های بسیاری کرده، متعاقبا تاثیرات بسیار زیادی نیز در این زمینه داشته‌اند.

شاگردان برجسته و روشنفکری که اکنون از فعالین و نوابغ آذربایجان به شمار می‌آیند؛ همچنین نگارش کتاب‌هایی که در راستای احیای تاریخ آذربایجان بوده‌اند، همه نشان از وطن‌دوستی و بینش آینده‌نگر ایشان است و به راستی تماماً برازنده شخصیت فاخری همچون اوست.

هرچند سعادت دیدار و شاگردی و بهره‌مندی از حضور ایشان را نداشتم، لاکن نقش بزرگوار حتی پس از وفات را نمی‌توان انکار کرد؛ کتاب‌ها و نوشته‌هایشان همواره برای همه ما منبع و ماخذ کسب حقیقت است.

خاطره کوتاهی نقل می‌کنم شاید خالی از لطف نباشد.

سال‌های اول ورود من به دانشگاه و آشنا شدن با تاریخ و هویتم به لطف فعالین عزیزی که آن سال‌ها در دانشگاه ارومیه برای آگاهی دوستان جوان خود تلاش می‌کردند بود.

طبیعتاً من تا آن زمان به سبب سیاست‌های آسیمیله‌ای که گریبان اکثر خانواده‌ها و جوانان آذربایجانی را گرفته بود چیزی در مورد بزرگانی همچون پروفسور زهتابی، تاریخ آذربایجان و حتی خواندن و نوشتن به زبان خودم را نمی‌دانستم. کم کم در جو دانشگاه و فعالیت‌های موجود قرار گرفتم و نام پرفسور در کلاس‌های تاریخ خوانی و ادبیاتی که آقای الف. ساوالان برایمان برگزار می‌کرد به گوشم خورد. تاکید آقای رشیدی بر خواندن کتاب‌های ترکی وتشویق به نوشتن به زبان خودمان رقابتی دوست داشتنی را سبب شده بود که هر کدام سعی در بردن آن داشتیم.

اردیبهشت سال ۸۱ یا ۸۲ بود. انجمن دانشگاه ارومیه که آن زمان‌ها مسئولیت اداره آن با به اصطلاح بچه‌های خودی و آگاه بود عده‌ای از دانشجویان را برای بازدید از نمایشگاه بین‌المللی کتاب تهران انتخاب کرد و خوشبختانه من هم به لطف هم اتاقی و دوستی که نقش مهم و پررنگی را در بیداری و آگاهی من داشت (خانم م .مهدی زاده) جزو همین گروه بودم. اولین جایی که رفتیم غرفه فروش کتاب‌های ترکی بود. به نیت خرید کتاب قطور «تاریخ دیرین ترکان ایران» را برداشتیم در حال ورق زدن بودیم؛ فردی هنگام عبور از جلوی غرفه با صدای بلند گفت: غرفه فاشیست‌ها! و به همان سرعت از طرف مهسا. م جواب گرفت که اگر شوونیستی بود می‌پسندیدی. و من حیران میان این دو واژه و کتاب تاریخ مانده بودم.

زندگی دانشجویی و دوری از خانواده، همچنین مسئولیت اداره درست اموراتمان با خودمان بود و طبیعتاً پول خرید دو جلد کتاب غیر درسی برای ما خیلی سنگین بود. برای همین تصمیم گرفتیم کتاب را هر دو با هم خریده و مشارکتی استفاده کنیم؛ هرچند که این خرید برابر بود با مخارج معادل چند روز ما. اما آنقدر شوق خواندن داشتم که بدون سبک و سنگین کردن این چند روز و برای پیشی گرفتن از رقبا، آن را خریدم. این اولین کتاب به زبان ترکی بود که داشتم؛ صاحب چیزی بودم که وجود و هویت مرا بدون هیچ تحقیر و تغییری تایید می‌کرد.

تابستان همان سال شروع به خواندن کتاب کردم. املای کلمات برایم در ابتدا سخت و ناآشنا بود؛ اما انشا آن حسی آشنا را در وجودم بیدار می‌کرد. جمله‌ها تشکیل شده بود از تمام کلماتی که ما در طول روز در خانه و جاهای دیگر استفاده می‌کردیم.

با تمام کردن یک جمله گویی فتح عظیمی رخ می‌داد و برایم یک دستاورد و پیروزی محسوب می‌شد. با تمام سختی در خواندن آنقدر دلچسب بود که نمی‌توانستم از آن بگذرم. گاه جمله‌هایی را هم برای بقیه می‌خواندم. مادرم می‌گفت: درس‌های شما را ترکی یاد می‌دهند، چه دانشگاه خوبی!

سه ماه تابستان برایم چالشی بود شیرین و به یاد ماندنی. این‌گونه خواندن ترکی را با این اثر ارزشمند شروع کردم؛ اثری که باعث شد بعدها در خواندن متون دیگر سریع‌تر و راحت‌تر عمل کنم و تاریخی که برایم آینده را رقم زد.

سال‌ها بعد و با گذشت تقریباً دو دهه از زمان دانشجویی روزگار و شرایط زندگی فرصتی را برایم فراهم آورد تا در آنکارا چند صباحی در کنار استاد گرانقدر سئوگی کافالی زندگی کنم. ایشان و همسرشان پرفسور مصطفی کافالی هر دو از بزرگانی بودند که محبتی عمیق و صمیمیتی دیرینه با مردم آذربایجان داشتند. منزلشان در ترکیه مامن بسیاری از آذربایجان‌ها بود.

خاطرات ارزشمندی از بزرگانی چون پروفسور زهتابی بیان می‌کرد. در یکی از خاطراتشان نقل می‌کردند که پروفسور هنگام پیروزی انقلاب در بغداد زندگی می‌کردند و موقعیت خوبی هم آنجا داشتند. به نقل از ایشان «در همان اثنا بعد از پیروزی انقلاب بود؛ همراه همسرشان به آنکارا آمدند و با مرحوم مصطفی کافالی در مورد برگشتن به ایران صحبت کردند. هر چقدر من و مصطفی اصرار کردیم که از این تصمیم منصرف شود نپذیرفت. همسرش خاور خانم که خودشان هم استاد بزرگی بودند اصلاً راضی به این بازگشت نبود و با گریه از ما می‌خواست تا به هر طریقی که شده نظر او را تغییر داده و راضی به زندگی در بغداد کنیم. هرچه ادله و منطق برایش ردیف کردیم نپذیرفت. می‌گفت شرایط تغییر کرده و من باید به وطنم و تبریز بازگردم؛ باید برای خدمت به خاک و مردم سرزمینم از آنچه که اکنون دارم بگذرم؛ آنجا به وجود من نیاز دارند. تمام اصرارها و گریه‌ها هیچ کدام نتوانست ذره‌ای در

تصمیم ایشان خلل وارد کند و در نهایت به تبریز بازگشت. اما متاسفانه آنجا هم آنطور که شایسته ایشان بود مورد تکریم واقع نشد و محبوس گردید اما همچنان راهی را که انتخاب کرده بود ادامه داد.»

آری پروفسور زهتابی با تمام آنچه که برایش رقم زدند هیچگاه از هدف خود و آرمانش دست نکشید. سال‌ها در شبستر در منزل خود و حتی بدون چشم داشت از کسی تمام تلاشش را کرد تا شاگردانی را پرورش دهد که پس از خودش ادامه دهنده این حرکت باشند و آموخته‌هایش همچنان معتبر و بی نقص‌اند.

راهش پر رهرو.

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 43-47
Telif Haqqı©Varlıq Dergisi

دوکتور زهتابی ایله سون گؤروش

● **محمدرضا قوچی**[۱]



سون‌باهارین یاواش-یاواش چکیلیب یئرینی قیشین دوندوروجو سویوغونا بوراخماغا حاضیرلاندیغی گونلردن بیری ایدی. آخشام تامامی ایله چؤکموش، گون‌بویو یاشانان هیجان و چالیشما، یئرینی آغیر بیر سس‌سیزلیگه وئرمیشدی. بو سس‌سیز آخشامین قوینوندا گونون یورقونلوغوندان اوزاقلاشماق اوچون روحومو موسیقی‌یه تسلیم ائتمیشدیم. تام دا او ساعاتلاردا ائو تلفونو چالاراق بو سس‌سیزلیگی پوزدو. تلفونو آچدیم. تلفونون او بیری طرفینده سئوگیلی دوستوم علیرضا بگ واردی.

– صاباح ناهارا دوغرو دوکتور زهتابی گله‌جک. سن ده گلیرمیسین؟ دئیه سوروشدو.

هئچ دوشونمه‌دن قبول ائله‌دیم.

چونکو بعضی اینسانلار واردیر؛ اینسان اونلاری یالنیزجا تانیماقلا یئتینمیر، اونلارین دوشونجلریندن، مجادیله‌لریندن و حیاتا باخیشلاریندان بیر شئیلر اؤیره‌نیر. وارلیقلاری، اینسانین اؤز یولونو تاپماسیندا سس‌سیز بیر ایشاره کیمی یول گؤسترییر. دوکتور زهتابی ده منیم حیاتیمدا بئله اؤزل یئره صاحیب اینسانلاردان بیری ایدی. بو نه‌دنله دوستومون دعوتی منیم اوچون سیرادان بیر گؤروشمه دعوتی دئییلدی. دوکتورو یئنه گؤره‌جک اولمانین هیجانی داها او آخشام ایچیمی قاپلامیشدی.

---

[۱] *وارلیق* درگیسی یایین قورولو اویه‌سی، ایمیل: m.reza.goci@gmail.com

دوغروسو دوکتور زهتابی ایله تانیشلیغیم چوخ داها اؤنجه‌لره دایانیردی. هله اون اوچ، اون دؤرد یاشلاریندایکن «آذربایجان مدنیت اوجاغی»نین آیدا بیر دوزنله‌دیگی توپلانتیلارا قاتیلاردیم. دوکتور زهتابی ده بو توپلانتیلارا قاتیلاردی. توپلانتیدا اؤزللیکله تورکلرین اسکی تاریخی اوزرینه ائله جوشغولو و حرارتلی بیلگیلر وئررردی کی، اونو دینله‌ینلرین گؤزونده تاریخ، قورو کیتاب صحیفه‌لریندن چیخیب جانلی بیر حیکایه‌یه دؤنوشردی. آرادان ایللر گئچمیش اولماسینا رغماً دوکتور زهتابی‌نین اؤزونو مخصوص آنلاتیم بیچیمی هله ده حافیظه‌مین بیر بوجاغیندا جانلیلیغینی قوروماقدادیر.

داها سونرالاری دوکتور زهتابی زامان- زامان بیزیم فعالیت گؤستردیگیمیز «اوشاقلار قوروبو»نا قوناق اولاردی. اوشاقلارین آراسینا اوتورار، اونلارلا صحبت ائدردی. اونون اوشاقلارلا دانیشماسیندا آیری بیر صمیمیت و سئوگی واردی. بؤیوکلرله دانیشیغینداکی آکادمیک دیلین آغیرلیغینی بیر کنارا بوراخیب اوشاقلارین دونیاسینا گیررردی. اوشاقلارا آنا دیلیمیزین گؤزللیکلریندن، تورکجه‌نین اینجه‌لیکلریندن سؤز ائدر؛ دیلیمیزین زنگینلیکلرینی آنلاتیرکن اؤزللیکله دیلیمیزده‌کی دوققوز سسلی حرفین اوزرینده دورارردی.

بیرگون یئنه «اوشاقلار قوروبو»نا گلدیگینده اوشاقلارا؛

- آنا دیلیمیزده نئچه سسلی حرف واردیر؟ دئیه سوروشدو.

اوشاقلار هامیسی بیردن:

- دوققوز دانا! دئیه جاواب وئردیلر.

دوکتور گولومسه‌دی. آردیندان:

- کیم سایابیلر؟ دئیه سوروشدو.

او سیرادا دؤرد- بئش یاشلاریندا سحر آداینداً کیچیک بیر قیز اوشاغی هیجانلا الینی قالدیردی.

- من سایماق ایسته‌ییرم، دئدی.

دوکتور اؤزونه مخصوص او صمیمی گولومسه‌مسی ایله اونا باخدی:

- سای قیزیم! دئدی.

سحر بؤیوک بیر جیدیت و هیجانلا سایماغا باشلادی:

- بیر، ایکی، اوچ، دؤرد، بئش، آلتی، یئددی، سککیز، دوققوز.

اوتاقدا شیرین بیر گولومسه‌مه یاییلدی. کیچیک بیر قیز اوشاغی‌نین او صاف و تمیز هیجانی هامینی نئشه‌لندیرمیشدی. دوکتور زهتابی ایسه بو فرصتی دگرلندیره‌رک دیلیمیزده‌کی دوققوز سسلی حرفی اؤرنکلرله اوشاقلارا آنلاتماغا باشلادی. او لحظه، بو صمیمی صحبت، دیل اوزرینه یاپیلان درسین چوخ اؤته‌سینده بیر دوروم ایدی.

ائرته‌سی صاباح ائرکندن حاضیرلاندیم. فقط بو دفعه یانیمدا دوکتور زهتابی ایله گؤروشمه‌نین هیجانینی داشیمیردیم. اوشاقلار اوچون حاضیرلادیغیم، آنا دیلیمیزین دوققوز سسلی حرفینی رنگلی اؤرنکلرله آنلاتان و «آنا دیلی ماوی دونیادا» آدینی وئردیگیم کیتابین اؤن چالیشماسینی دا یانیما آلدیم. بونونلا بیرلیکده «آرازین ایکی تایی» آدلی قیسا ادبی یازیمی دا دوکتور زهتابی‌نین گؤروشونه سونماق اوزره چانتاما قویدوم.

یولا چیخدیغیمدا ایچیمده ایلگینج بیر دویغو واردی. ایللردیر دوشونجه‌لریندن، اثرلریندن بسلندیگیم بیر اینسانلا یئنیدن قارشیلاشمانین موتلولوغونو داشییییردیم.

هرکسدن اؤنجه چاتدیم. یاخلاشیق یاریم ساعات سونرا دوکتور زهتابی سئوگیلی دوستوم غلامرضا بگ ایله بیرلیکده گلدی. قاپی آچیلدیغیندا اوزونده بیلدیگیم او تانیدیق ایفاده واردی. حال- خاطیرینی سوروشدوق. دوکتور اولدوقجا یاخشی و ساغلیقلی گؤرونوردو. کئیفی یئرینده ایدی. اونو بئله گؤرمک منی آیریجا موتلو ائتمیشدی. او گون ایچیمیزدن کیمسه‌نین بونون سون گؤروشوموز اولابیله‌جگینی عاغلیندان بئله گئچیردیگینی سانمیرام.

سوفره‌یه اوتوردوق. علیرضا بگین سایغی‌دگر آناسی تبریزین او بنزرسیز مطبخیندن لذتلی یئمکلر حاضیرلامیشدی. سوفره‌نین اطرافیندا دانیشمالار، گولومسه‌مه‌لر و ایللردن بری سوزولوب گلن صمیمی بیر هاوا واردی. یئمگین آردیندان دوکتور زهتابی هر زامانکی اؤزونه مخصوص اسلوبو ایله دانیشماغا باشلادی. توپلومسال مسئله‌لردن سؤز ائتدی. بیر توپلومون گلیشمه‌سینده قادینلارین رولو اوزرینده دوردو. اؤزللیکله آذربایجان میلّی حرکتینده قادینلارین وارلیغی‌نین و مجادله‌سی‌نین اؤنمینه دقت چکدی. دوکتور اوچون توپلوم مسئله‌سی یالنیزجا سیاست و یا تاریخدن عبارت دئییلدی؛ توپلومون بوتون عنصورلاری‌نین اؤزللیکله قادینلارین و گنجلرین بو سورچده‌کی یئری اؤنملی ایدی.

بیر سوره سونرا دوکتور زهتابی صحبتی آنا دیلیمزه گتیردی. تورکجه‌نین چوخ کؤکلو و زنگین بیر دیل اولدوغونو، تاریخی‌نین چوخ اسکی دؤنملره اوزاندیغینی آنلاتدی. آردیندان ایرن‌داکی تورکلر طرفیندن عرب الیفباسی ایله یازیلان تورکجه متینلرده فرقلی یازی بیچیملری‌نین قوللانیلماسیندان سؤز ائتدی. بونون اؤنملی بیر سورون اولدوغونو و آلمانیادان دؤندوکدن سونرا بو قونویو ایلگیلی اوزمانلارلا بیر آرایا گلیب بیر چؤزوم بولماغا چالیشاجاغینی سؤیله‌دی. سونرا اؤزونه مخصوص قرارلی بیر سس تونو ایله:

- عراق‌دا کوردلر بونو باشاردیلار، بیز نییه بو ایشی گؤرمه‌یک؟ دئدی.

بو جمله بو گون هله ده حافیظمده یئرینی ساخلاماقدادیر. چونکو دوکتور زهتابی ساده‌جه بیر سورونون وارلیغیندان سؤز ائتمیردی عینی زاماندا بو سورونو چؤزمک اوچون بیر اراده اورتایا قویوردو. او، دیل مسئله‌سینی یالنیزجا حرفلردن و یازی بیچیملریندن عبارت گؤرموردو. دیل اونون اوچون حافیظه، کیملیک، تاریخ و گله‌جکدی.

صحبتین آردیندان یانیما آلدیغیم «آنا دیلی ماوی دونیادا» کیتابی‌نین اؤن چالیشماسینی گؤستردیم. دوکتور، کیتابی گؤرونجه چوخ موتلو اولدو. تبریک ائتدی. سونرا کیتابی بؤیوک بیر دقتله اینجه‌له‌مگه باشلادی. صحیفه‌لری بیر-بیر چئویردی. بعضی یئرلرده دوردو، نوتلار آلدی. دوزلتمه‌لر اؤنردی. بعضی قونولاردا ایسه یئنی فیکیرلر وئردی. اونون دگرلندیرمه‌لری منیم اوچون یالنیز بیر بیلیم اینسانی‌نین اؤنریلری دئییل، ایللر بویو دوشونجه‌لرینه دگر وئردیگیم، سؤزلرینه اینانديغیم بیر اؤیرتمنین یول گؤستریجی سؤزلری ایدی.

منه باشاریلار دیله‌دی. او آن ایچیمده بؤیوک بیر سئوینج واردی. اوشاقلارا آنادیلیمیزی سئودیرمک آماجی ایله حاضیرلادیغیم کیچیک بیر چالیشمانین، دوکتور زهتابی‌نین اللرینده آنلام قازانماسی مینم اوچون اونوتولماز بیر موتلولوقدو.

فرقینده اولمادان ساعات ایره‌لیله‌میشدی. دؤرد- بئش ساعات بویونجا صحبت ائتمیش، گئچمیشدن و گله‌جکدن سؤز ائتمیشدیک. گون آخشاما دوغرو ایره‌لیله‌ییردی. زامانین نئجه گئچدیگینی آنلامامیشدیق.

دوکتور زهتابی بیر توپلانتی اوچون آلمانیایا گئده‌جگدی. آیریلما واختی گلدیگینده دوکتورا ساغلیقلی و حضورلو بیر یولچولوق دیله‌دیک. سونرا ساریلدیق و وداعلاشدیق.

او ساریلیشین سون ساریلیشیمیز اولاجاغینی بیلمیردیم. او وداع‌نین بیر داها گرچکلشمه‌یه‌جک گؤروشمه‌نین وداعسی اولدوغونو بیلمیردیم.

بیر گون آخشاما دوغرو تلفون چالدی. تلفونون او بیر اوجوناکی دوستوم دوکتور زهتابی‌نین آلمانیادان دؤندوکدن سونرا ائوینده حیاتینی ایتیردیگینی سؤیله‌دی. بیر سوره دانیشامادیم. نه دئیه‌جگیمی بیله‌مه‌دیم. سانکی او آن زامان دورموشدو. بیر نئچه هفته اؤنجه عینی سوفره‌ده اوتوردوغوموز، ساعاتلارجا دانیشدیغیمیز، کیتابیمین صحیفه‌لرینی بیر-بیر اینجه‌له‌ین او دگرلی اینسان آرتیق یوخدو. پنجره‌دن دیشاری باخدیم. قیش گلمیشدی. آغاجلارین سارالان یارپاقلاری بیر-بیر، اسن یئل ایله بوداقلاریندان آیریلیب تورپاغا دوشوردو.

بیر یارپاق داها دوشدو تورپاغا. آما بو دفعه دوشن یالنیزجا بیر یارپاق دئییلدی. بیر عؤمور، بیر سس، بیر حافیظه، بیر فیکیر آدامی آرامیزدان آیریلمیشدی.

غم، کدر بؤیوک بیر توپلومو سارمیشدی.

آرادان ایللر گئچسه ده او گون گرچکلشدیردیگیمیز گؤروشمه حافیظه‌مده هله ده یئرینی قورویور. سوفره‌ده‌کی صحبتلر، اوشاقلارلا ایلگیلی دانیشیقلار، آنا دیلیمیز ایله ایلگیلی سؤیله‌ننلر، کیتابیمین تیتیزلیکه اینجه‌لنمه‌سی و آیریلیشیمیز. هامیسی ذهنمیده عینی جانلیلیقلا دورور.

بوگون دوکتور زهتابی آرامیزدا دئییل. فقط بعضی اینسانلار اؤلومله حیاتیمزدان چیخمازلار. اونلار اثرلری ایله، دوشونجه‌لری ایله، یئتیشدیردیکلری اؤیرنجیلر و بوراخدیقلاری ایزلرله یاشاماغا دوام ائدرلر. دوکتور زهتابی ده بئله بیر اینساندی.

دوکتور زهتابی آرامیزدا اولمایابیلیر؛ آنجاق دوشونجه‌لری هله ده جانلیلیغینی قورویور. یازدیغی اثرلر هله ده اوخونور. آنا دیلیمیزه اولان سئوگیسی هله ده گنج نسیللره ایلهام وئریر.

سؤیله‌مم گره‌کیر کی، دوکتور زهتابی‌نین آچدیغی یولدا یئریمک ساده‌جه بیر ترجیح دئییل، عینی زاماندا بیز گنجلره بوراخدیغی بؤیوک بیر میراثا قارشی وفا بورجودور.

بعضی اینسانلار حیاتدان آیریلسا دا میلّتین حافیظه‌سینده و کؤنلونده یاشاماغا داوام ائدر. دوکتور زهتابی منیم حافیظه‌مده اولودوغو کیمی اونون خاطیره‌سینی سایان هرکسین حافیظه‌سینده و بؤیوک تورک میلّتی‌نین بللەگینده یاشاماغا داوام ائده‌جکدیر.

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 49-50
Telif Haqqı©Varlıq Dergisi

دوکتور زهتابی‌دن قیسا بیر خاطیره:
«تبریزده اولمالی‌دیر.»

● **بابک هرگلی** [1]



رحمتلیک دوکتور زهتابی ایله آتام یاخین یولداش اولدوقلاری اوچون دوکتورلا بیزیم ائوده گؤروشوموز چوخ اولاردی. حتی بیز اوشاقکن اوشاقلار اوچون یازدیقلاری ناغیللاری اوخویاردی، یا دا میرزه علی معجز حاقیندا دانیشاردی...

۱۳۷۷-جی ایلده دوکتور زهتابی‌نین شاه اثری ساییلان "ایران تورکلری‌نین اسکی تاریخی" کیتابی‌نین یازیمی قورتارمیش و چاپ اوچون حاضیرلانمیشدی. او سیرادا بیر نفرله تلفونلا قیزغین دانیشیردی. دانیشیغین سونوندا دئدی؛ گلیرم تهرانا یاخیندان دانیشاریق. من ائودن ترمینالا چاتدیرارکن، دوکتور دئدی: بو شخص کیتابین بوتون چاپ خرجینی وئریر، الده چکمه‌یییر. ترمینالا چاتدیق و تهرانا دوغرو گئتدیلر. نئچه گون سونرا تبریزه گلدیلر، سوال وئردیم دوکتور نه خبر؟

قبول ائتمه‌دیم، منیم کیتابیمدا چاپ یئری «تبریز» یازیلمالی‌دیر، دئدی. بئله ده اولدو.

آذربایجان تاریخینده بلکه ده ایلک دفعه تورکجه بیر کیتاب چاپ اولمادان اؤن ساتیشا بوراخیلدی و کیتابین خرجی بئله‌لیکله تامین اولوندو. دوکتور زهتابی‌نین دئدیگی کیمی چاپ یئری تبریز اولدو. آذربایجان مرکزلی تفکورون تمل داشینی دا قویدو. بورادا آرتیرمالی‌یام؛ بو کیتابین اؤن ساتیشیندا «آذربایجان مدنیت اوجاغی»نین عوضسیز رولو اولموشدور. پروفسور

---

[1] رحمتلی حسن دمیرچی‌نین اوغلو، مدنی فعال.

زهتابی دا اوجاغین نوبتی اجلاسیندا تبریز حاقیندا و اونون همت والاسیندان آتشین دانیشاراق، بو ایش بیرلیگیندن اؤترو تشکور ائتدی.

آدی، یادی قالارغی، یولو داواملی اولسون.

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 51-55
Telif Haqqı©Varlıq Dergisi

دوکتور زهتابی و میلّتینه حصر اولونموش بیر عؤمور

● **حسین رنگرززاده** [1]



اؤزونه کیریشچی، میشوولو، م شبسترلی وس. تخلوصلری سئچن فیلولوق، دیلچی، شرق‌شوناس، شاعیر و ادبیاتچی، دوکتور محمد تقی زهتابی، شبسترده بیر کیریشچی و تاجیر عایله‌سینده آنادان اولموشدور. او زامانلار باغیرساق اعمالی ایله مشغول اولان پئشه، کیریشچی‌لیک آدلانیردی. باغیرساقدان بیر نئچه محصول اعمال ائدیلیب آوروپایا گوندریلردی.

محمدتقی اوشاقکن قیشین اوزون گئجه‌لرینده یاشلیلارا آلپ‌آرسلان ناغیلینی اوخویارکن آنا دیلینده ساوادلانماغین لذتینی آلیب، کیملیک مجادله‌سی‌نین یولونا ایلک آددیملارینی آتمیشدیر. مکتبین اورتا دؤنمینده آتاسی محمد تقی‌نی قارداشی ایله بیرلیکده یوکسک کیفیتلی تحصیل آلماق اوچون تبریزه یوللامیش و محمدتقی اورتا مکتبی تبریزده اوخوموشدور. آتاسیندان هفته‌لیک آلدیغی مادی مواجیبین بیر قدرینی "شعار" آدلی دینی مکتبده عرب دیلینی اؤیرنمه‌یه و بیر قدرینی ده تبریزین پاساژ کوچه‌سینده یئرلشن کاتولیک کلیساسیندا فرانسالی کئشیشدن فرانسیزجا اؤیرنمه‌یه صرف ائدن محمدتقی، مکتب درسلری ایله بیرلیکده فرانسیز و عرب دیللرینی ده مکمل اؤیرنیر.

زهتابی آذربایجان دموکرات فرقه‌سی دؤنمینده جاوانلار تشکیلاتی‌نین عضوو اولموشدور. آذربایجان دموکرات فرقه‌سی تبریزده حکومتده اولدوغو زامان، زهتابی اؤز دوشونجه یولونو سئچیب و میلّی دگرلری اؤن پلانا آلماغی، میلّتین سعادته دوغرو ایره‌لیله‌مه‌سینه فوندامنتال

[1] مرحوم دوکتور زهتابی‌نین یاخین دوستلاریندان. ایمیل: hoseinrangraz@gmail.com

اساس کیمی باخیب، ملی کیملیک مجادله‌سی چرچیوه‌سینده دورمادان و سارسیلمادان یولونا داوام ائتمیشدیر. محمدتقی زهتابی، فرقه دؤنمینده تبریزده یاشادیغی زامان، مودرن دونیادا میلّی مسئله‌نین خالقلارین طالعینده نه قدر اهمیت داشیدیغینی دوشونوب و بو دوشونجه اساسیندا استالینیزم و سول فیکیرلی شخصلر و آخینلارلا دوشونجه ساحه‌سینده قارشی دورمالار یاشامیشدیر. بئله قارشی دورمالار سونوجوندا سووئتلر بیرلیگینه مجبوری قاچدیقدان سونرا غلام یحیانین تاپشیریغی ایله سیبری زندانیندا، ایشله‌مه‌دیگی سوچون محکوملوغونو یاشامیشدیر.

محمدتقی زهتابی سیبری‌دن آزاد اولدوقدان سونرا باکی دؤلت اونیورسیته‌سینده فیلولوژی عالیم کیمی اؤزونو یئتیشدیریب، سونرا اونیورسیته‌ده ایللر بویو چالیشیب، خالقی‌نین سعادتی یولوندا مبارزه‌نین آردینی عراق‌دا داوام ائتدیرمک اوچون باغدادا کؤچموشدور. دوکتور زهتابی باغداد اونیورسیته‌سینده دیلچی عالیم، آکادمیک و ژورنالیست کیمی چالیشیب و دورمادان باغدادا و برلین‌ده اورکده دوندورولان سؤزلرینی چوخلو کیتابلار و نشریات واسطه‌سی ایله چاپ ائدیب یایمیشدیر.

عراق تورکلری‌نین دیل و ادبیاتی اوزرینده علمی چالیشمالار سونوجوندا کرکوک تورکجه‌سی‌نین صرف، نحو و درسلیکلرینی، یازیب ترتیب ائدیب، بندر اوغلو جنابلاری‌نین واسیطه‌سی ایله چاپ ائتدیرمه‌یه نایل اولموشدور. بونا باخمایاراق، من باکی نفت آکادمیسینده تحصیل آلماق مقصدی ایله باکی شهرینه گئدرکن منه یگانه تاپشیریغی بئله اولموشدور:

«من ایللر بویو وطندن قیراقدا چالیشدیم. علمی سویه‌ده چوخلو ادبی، مدنی ایشلر گورمه‌یه نایل اولدوم و گؤردویوم ایشلر وطن و میلّتیمه خیدمت مقصدی داشییب، خالقیمین سعادتی اوغروندا فایدالی اولدوغونو ساندیم. آما وطنه دؤندویوم زامان زحمتلریمی بوشا خرجله‌دیگیمی دوشوندوم. من خالقیما وطنده بیر ایل چالیشمانین تاثیرینی، وطندن قیراقدا اونلار ایل چالیشمادان داها فایدالی گوردوم.» ایران‌دا پهلوی دیکتاتورلوغو کؤچدوکدن سونرا گله‌جکده تورک میلّتی آنا دیلینده تحصیل آلماق اوچون علمی قایناقلارین و کادرلارین یئرینی بوش گؤروب تبریز دانیشگاهیندا تورک دیلی و ادبیاتی فاکولته‌سی یاراتماق مقصدی ایله دوکتور زهتابی عایله‌سی ایله استانبول‌داکی ائویندن آیریلیب وطنه دؤندو.

منیم دوکتور زهتابی ایله ایلک گؤروشوم آتانین دوستلاری ایله شبسترده یئرلشن دوکتورون باجیسی‌نین ائوینده اولموشدو. دوکتور زهتابی زیندانداندان چیخدیقدان بیر نئچه گون سونرا بو گؤروش باش توتدو. دوکتورون ساغلیق وضعیتی چوخ گرگین ایدی؛ بئله کی، هئچ کیمسه اونون دیرچلیب اؤزونو توپلاماسینا اینانمیردی.

دوکتور زهتابی خالقی‌نین گوجونه اینامیندان قایناقلانان ایراده‌سی نتیجه‌سینده وطن و خالقینا بسله‌دیگی سئوگییه دایاناراق، خالقی‌نین سعادتینی مقصده آلیب میشونون هاوا و سویوندان فایدالانیب بیرنئچه آیدان سونرا آیاغا قالخیب یئنه مجادله یولوندا آددیم آتماغا باشلادی.

مینلرجه داغ کسرسه یولون، دایانما گئت

مینلرجه یول سالارسا آیاقدان، ییخیلما دور.

من گنجلیگیمین ایلک چاغلاریندا آتا اوجاغیمدا دوکتور زهتابی کیمی بیر اینسانلا بیرلیکده اولماق، اونونلا یاشاماق و اونون سایه‌سینده یاشامین آنلامینی و مقصدینی دوشونمک ایمکانینا نایل اولدوغوم اوچون میلّتیمین سعادتلی شخصلریندن ساییلیرام.

زهتابی منیم اوچون صداقتین، مودریکلیگین، استقامتین، خالقینا خیدمتین و هر نؤع طوفان قارشیسیندا دایانیب یولونا داوام ائتمگین بیر نمونه‌سی ایدی. او، اؤز وارلیغینی، یاشامینی و یاشامدا وار اولان فرصت و ایمکانلارینی میلتینه خیدمته حصر ائتمیشدی. زهتابی‌نی نه زیندان، نه سورگون، نه محرومیت، نه یولون اوزونلوغو و نه ده هئچ بیر مانع دایاندرابیلمه‌دی. زهتابی یولونو سئچمیشدی و سئچدیگی یولون سونونادک گئتمک اونون اوچون یاشام سببینه چئوریلمیشدی.

دوکتور زهتابی تبریزده زیندانداندان چیخدیغی گونلرده آتام اونونلا صحبت ائدرکن، دئدی:

"آقای دوکتور، اوشاقلاردان اوتورو داراخمامیسیز؟"

دوکتور زهتابی کوچه‌یه و اورادا اولان گنجلره ایشاره ائدیب دئدی:

"بو اوشاقلاریـن هامیسی منیم اوشاقلاریـمدیر".

بو سؤزلر اونون میلّتینه باخیشینی و گنج نسلین اونون اوچون نه قدر بؤیوک اهمیت داشیدیغینی گؤسترمک اوچون یئترلی‌دیر. اونون اوچون خالق یالنیز بیر توپلوم، بیر تاریخ و یا بیر جوغرافیا دئییلدی؛ خالق اونون اوچون بیر اولو کیملیک، گله‌جگین آنلامی و اؤز طالعینه حاکیم اولابیلن بیر میلت ایدی. زهتابی گله‌جگین قورولوشونو گنجلرین ایراده‌سینده گؤروردو.

من دوکتور زهتابی‌نی ایران تورکلری‌نین معاصر تاریخینده بیر اؤنجول، یئنی بیر فیکیر و تورک توپلوموندا مترقی بیر آخینین باشلانقیجی کیمی گؤرورم. زهتابی ایران تورکلرینده میلّی مسئله‌نی یالنیز فیکیر ساحه‌سینده دئییل، دوشونجه‌نین توپلومدا اویقولانیب مستقیل بیر آخینا چئوریلمه‌سینی گئنیش و سیستملی شکیلده اورتایا قویدو. زهتابی‌نین اطرافیندا اورتایا قویدوغو دوشونجه‌نین، قارشیسیندا دورانلار دوست و دوشمن آدینا آز دئییلدی. بونلارا رغماً زهتابی یولونو سئچمیشدی.

دوکتور زهتابی خالقی‌نین چیخارینی دگرلندیریب تورک میلی چیخارلاری اطرافیندا دوشونجه طرزینی پوزوب یئنیدن یازماغا نایل اولدو و باشلاتدیغی آخیندا اونون اساسلارینی یئنیدن قوروب، باغیمسیز بیر دونیا گؤروشو و مستقیل بیر آخین کیمی اورتایا قویدو. بو حرکت، سونرالار «میلّی حرکت» آدلانان فیکیر و عمل آخینی‌نین گله‌جگینه بؤیوک تأثیر گؤستردی.

زهتابی مودرن دونیادا ترقی‌نین و انکشافین نه‌دن و نئجه باش وئردیگینی آراشدیرماقلا، مترقی دئولتلره صاحیب اولان میلّتلری، اونلارین یاشام تجروبه‌لرینی، دوشونجه سیستملرینی و دؤلت

قورولوشلارینی اؤیره‌نیب، اؤز میلتی‌نین ارتیجاع و استیبداد گوجلرین قاراما آلتیندا قالماسی‌نین سببلرینی یالنیز خاریجده دئییل، اؤلکه داخیلینده آراشدیریردی. بئله‌لیکله او، میلت، کیملیک، دیل، تاریخ، میلّی ایدئولوژی، سیاسی گوج، میلّی حاکمیت و میلّی دؤلت آنلاملاری آراسینداکی باغلانتینی دوشونوب، میلتلرین طالعینده اوینادیغی رولون نه قدر بؤیوک اولدوغونو درک ائتمیشدی. زهتابی بیر خالقین اؤزونو تانیمادان، میلّی غرورا یییه‌لنمه‌دن، اؤز یولونو سئچیب طالعینه یییه‌لنمک گوجونه مالیک اولماسینا اینانمیردی. بو نه‌دنله اونون دؤشونجه‌سینده «اؤزونو تانیماق»، «اؤزگه‌لری تانیماغ»، «میلّی غرورو منیمسه‌مک» و «وضعیتی‌دگرلندیریب، میلّی سعادتی تانیماق» بیر-بیریندن آیری دئییلدی.

دوکتور زهتابی بو دوشونجه‌نی یالنیز کیتاب و مقاله‌لرده یازماقلا کیفایتلنمه‌ییب، میلّی اویانیشی دیرچلدیب حرکته گتیرمک مقصدی ایله تبریزده دیل و تاریخ درسلری و صینیفلری تشکیل ائتمه‌یه باشلادی؛ داها سونرا زهتابی آخین و فیکر چئوره‌سینی گئنیشلندیریب، تورکلرین یاشادیغی باشقا شهرلرده اؤز فیکرینی یایماغا نایل اولدو. بو گئدیشده آماج یالنیز دیلی اؤیرتمک دئییلدی؛ زهتابی‌نین مقصدی دیل واسیطه‌سی ایله کیملیگی، تاریخ واسطه‌سی ایله میلّی غرورو و اؤزونو تانیماقلا یئنی نسیلده دؤنوش نقطه‌سی یارادیب سعادت یولوندا آددیملاماغین باشلانقیجی ایدی.

زهتابی آتا-بابالاریمیزین یاراتدیقلاری امپراتورلوقلاری، دؤلتلری، اویقارلیقلاری (سیویلیزاسیون) و تاریخی پروسسلری تانیمادان، میلتین اؤزونه باخیشی و اؤزگووه‌نی دوغرو فورمالاشابیلمز دئیه اینانیردی. بئله‌لیکله «اؤزونو تانیمایان و اؤز گوجونو بیلمه‌ین تورک، اوز طالعینه یییه‌لنه‌بیلمز» پرینسیپینی اؤز فیکیر و مبارزه‌سی‌نین اساسینا چئویرمیشدی.

دوکتور زهتابی‌نین باخیشیندا میلّی اویانیش یالنیز میلّی هیجان و یا اجتماعی و فرهنگی مسئله کیمی دئییلدی؛ او، میلّی مسئله‌نی بیر ایدئولوژی کیمی گؤرور و بیر خالقین اؤز طالعی اوزرینده سؤز و حاق صاحیبی اولماسینی و تاریخده یاشادیغیمیز کیمی سیاسی گوجه یییه‌لنمه‌سینی، میلّی اویانیشین سون مقصدی سایییردی. بو یولون ایلک آددیمینی ایسه میلّی شعورلانمادا گؤروردو. بئله بیر دونیا گؤروشو زهتابی‌نین عؤمور بویو یاشامی‌نین، آراشدیرمالاری‌نین و مبارزه تجربه‌سی‌نین محصولو ایدی.

«بیر دیله‌ییم وار،
اوگون انتظارلار باشا چاتاندا
ائلیم زنجیرینی قیریب آتاندا
عدالت دیوانی قورولان زامان
هر یاندا بایراغیم ووروlان زامان
شن نغمه سسینده دولاندا تبریز
اختیار الینه آلاندا تبریز

باشیم آغارسا دا بیر اوغلان کیمی
باشیما گله‌نی ارمغان کیمی
ارک‌دن خالقیما سپه‌جگم من
توربت تک توپراغیمی اؤپه‌جگم من
مقدس آرزو گؤزل بیر دیلک
بو دیلک اوغروندا تقدیم ائده‌جک
بیر اوره‌گیم وار بیر اورک»

زهتابی میلّی سعادتین یالنیز بیر شهرین، هر هانسی بیر توپلومون و یا بیر نسلین مسئله‌سی اولمادیغینی دوشونوردو. او ایران‌دا یاشایان تورکلرین تاریخ، دیل و کیملیک باخیمیندان بیر-بیری ایله باغلیلیغی و گله‌جکده بو باغلیلیغین اساس رول ایفا ائده‌جگینه اینانیب، متافیزیک باغلیلیق و بو باغین فیکیر ساحه‌سینده یئنیدن قورولماسینا چالیشیردی.

دوکتور زهتابی بو یولون بیر گئجه‌ده گئدیله‌بیلمه‌یه‌جک قدر اوزون اولدوغونو دوشونوب، باشلاتدیغی آخینی بو یولون باشلانقیجی ساییب، سونراکی نسلین بو یولو دؤزوملە، بیلیکله و میلی اویانیشلا داوام ائتدیرمه‌سینی گرکلی گؤروردو.

زهتابی گنجلره یالنیز بیر فیکر دئییل، بیر یول گوسترمک ایسته‌ییردی. میلّی کیملیگینی، میلّی غرورونو، اؤز میلتی‌نین تاریخینی و سعادت یولونو آنلایان هر بیر گنجی بو یولون داوامچیسی و بو مبارزه‌نین سونراکی آددیم‌لارینی آتاجاق بیر نسیل کیمی گؤروردو.

بو باخیمدان دوکتور زهتابی‌نین یاشامینا صیرف اونون اؤز شخصی یاشام تاریخچه‌سی کیمی باخماق اولماز. اونون یاشامی، بیر فیکرین دوغوشو، یاشادیلماسی و بیر نسله چاتدیریلماغی‌نین تاریخی‌دیر. اونون آتماق ایسته‌دیگی ایلک آددیم، گلن نسیللرین یولونون چزگیسی ایدی.

دوکتور زهتابی‌نین آچدیغی یولون آددیملاری داوام ائتدی. اونون سؤزلری، اوخوتدوغو درسلر، یازدیغی اثرلر و اونونلا یاشامیش انسانلارین خاطیره‌لری، بو یولون حافیظه‌سی کیمی قالدی.

من گنجلیگمده دوکتور زهتابی‌نی یالنیز کیتابلاردان و سؤزلردن تانیمامیشام؛ اونونلا بیر اوجاغی، بیر ائوی، بیر گوندمی یاشامیشام. اونون میلت اوچون نه ایسته‌دیگینی، نئجه دوشوندویونو و نئجه یاشادیغینی یاخیندان گؤرموشم.

بو سببدن دوکتور زهتابی منیم اوچون صیرف بیر عالیم، فیلولوق، دیلچی، شرق‌شوناس، شاعیر و ادبیاتچی دئییلدیر. او، یاشامینی بیر میلّتین دوشونجه‌سینه، میلی کیملیک مسئله‌سینه و طالعینه حصر ائتمیش بیر اینسان، بیر معلیم و بیر یول گوستریجی‌دیر.

زهتابی اؤز یاشامینی اؤزونه دئییل، گله‌جگه امانت وئردی.

تبریز ۱۴۰۵ مهر آیی

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 57-62
Telif Haqqı©Varlıq Dergisi

ایلک تورکجه اؤیرتمنیم دوکتور محمدتقی زهتابی

● **دوکتور محمدرضا هیئت**[1]



پروفسور دوکتور محمدتقی زهتابی، کیمیلری اوچون بؤیوک بیر عالیم و دیلچی، کیمیلری اوچون تاریخچی، کیمیلری اوچونسه عؤمرونو میلّتی‌نین داعواسینا آدامیش بیر مجادله آدامی‌دیر. تاریخچی اولمادیغیم اوچون اونون تورک تاریخی ایله ایلگیلی اثرلرینی دگرلندیرمگی بو ساحه‌نین اوزمانلارینا بوراخماغی ترجیح ائدیرم. آنجاق بیر دیلچی اولاراق اورتایا قویدوغو اثرلر، ایشلتدیگی یؤنتملر، سئچدیگی اؤرنکلر و ایره‌لی سوردویو گؤروشلر، اونون تورک دیلی آراشدیرمالاریناداکی یئتکینلیگینی گؤسترمه‌یه یئترلی‌دیر.

زهتابی‌نین حیاتینی میلّتینه آداماسی؛ عؤمور بویونجا قارشیلاشدیغی حاقسیزلیقلارا، سورگونلر و حبس حیاتینا باخمایاراق میلّی داعواسیندان واز گئچمه‌مه‌سی ده اونون مجادله‌جی شخصیتی‌نین ان آچیق گؤسترگه‌سی‌دیر. آنجاق منیم اوچون دوکتور زهتابی‌نین بوتون بونلارین اؤته‌سینده باشقا بیر یئری و دگری واردیر. چونکو بیلیمسل آنلامدا او، منیم ایلک تورکجه اؤیرتمنیمدیر.

آنا دیلینده تحصیل امکانلاریندان محروم قالمیش توپلوملاردا، انسانین اؤز دیلی‌نین قرامرینی بیلیمسل یؤنتملرله و بو ساحه‌نین اوزمانلاریندان اؤیرنه‌بیلمه‌سی باشلی باشینا بؤیوک بیر شانسدیر. من ده گنجلیگیمده بو شانسی یاخالایان و دگرلندیرنلردن بیری اولدوم. بو نه‌دنله منه

[1] *وارلیق* درگیسی باش ادیتورو، آنکارا اونیورسیته‌سی اؤیرتیم اویه‌سی. ایمیل: mrheyet@gmail.com

تورکجه‌نی اؤیره‌دن اوستادلاریما، اؤزللیکله ده ائولرده یاپیلان درسلرینه قاتیلما امکانینی منه ساغلایان اوستادیم مرحوم دوکتور زهتابی‌یه هر زامان مینّت دویدوم.

دوکتور زهتابی ایله تانیشمامدا دوکتور جواد هیئت‌ین بؤیوک رولو واردی. بو تانیشمانین حکایه‌سی ایسه منیم اوچون باشلی باشینا اونودولماز بیر خاطیره‌دیر.

اورتا مکتب ایللرینده، ۱۹۸۵-۱۹۸۲ آراسیندا، *وارلیق* درگیسی سایه‌سینده بیلیم و کولتور دونیامیزین اؤنده گلن شخصیتلری‌نین بیر چوخونو هله اؤزلری ایله تانیشمادان آد اولاراق تانیماغا باشلامیشدیم. درگیده یاییملانان مقاله‌لرینی اوخویور، الده ائده‌بیلدیگیم اؤلچوده کیتابلارینی تاپماغا چالیشیردیم. بو شخصیتلردن بیری ده دوکتور زهتابی ایدی. اونون *وارلیق*دا یاییملانان مقاله و شعرلرینی اوخوموش، یازیلاریندان یارارلانمیشدیم. آنجاق او ایللرده زهتابی‌نین کیم اولدوغو، نئجه بیر حیات یاشادیغی و تورک دیلی اوچون یاپدیغی چالیشمالارین قاپسامی حاقیندا چوخ بیلگیم یوخدو.

لیسه ایللرینه گلدیگیمده دیلیمیزه و ادبیاتیمیزا اولان ایلگیم داها دا درینلشدی. داها اؤنجه اوخودوغوم بعضی یازیلاری یئنیدن اوخوماغا، دیل و ادبیاتلا ایلگیلی قایناقلاری داها دقتلی تعقیب ائتمگه باشلادیم.

او سیرالاردا لیسه دوستوم سئوگیلی جهانبخش بختاورین مکتبه گتیردیگی کیریل حرفلی بیر اوشاق درگیسی منیم اوچون یئنی بیر قاپی آچدی. بو درگی سایه‌سینده کیریل الیفباسینی گؤزلجه اؤیرنمه‌یه قرار وئردیم. قیسا سوره ایچریسینده بو الیفبایلا یازیلمیش متنلری راحاتلیقلا اوخویابیله‌جک بیر سویه‌یه چاتدیم. بئله‌لیکله سوویت آذربایجانیندا یاییملانان کیتاب و درگیلردن الیمه گئچدیگینده اوخویوب، آنلایابیله‌جکدیم. عینی ایللرده من ده یازماغا، کیچیک مقاله‌لر قلمه آلماغا باشلامیشدیم. ۱۷ یاشیمدا «محمد فضولی‌نین فارسجا دیوانی حاقیندا» یازدیغیم ایلک مقاله *مهد آزادی* قزئته‌سینده یاییملاندی. بیر ایل سونرا ایسه «گنجه‌لی نظامی‌نین حیاتی و اثرلری» باشلیقلی مقاله‌م، نظامی‌نین ۸۵۰-جی ایل دؤنومونده تبریز اونیورسیته‌سینده دوزنله‌نن اولوسلار آراسی کونفره مناسبتی ایله یئنه *مهد آزادی* طرفیندن نشر ائدیلن و بؤیوک نظامی اوزمانلاری‌نین مقاله‌لری‌نین یئر آلدیغی کیتابدا باسیلدی.

بوتون بونلار البته دوکتور جواد هیئت‌ین ده دقتینی چکیردی. منیم دیلیمیز و ادبیاتیمیزا دویدوغوم ایلگینی یاخیندان تعقیب ائدیر، بوندان ممنونیت دویدوغونو زامان زامان دیله گتیریردی. صحبتلریمیزده بیر نئچه دفعه اؤز عایله‌سیندن، اؤزللیکله ده هیئت سوی آدینی داشییان بیری‌نین اونون یولونو داوام ائتدیرمه‌سینی آرزو ائتدیگینی سؤیله‌میشدی. منیم ده بو ساحه‌یه یؤنلمه‌م و تورک دیلی و ادبیاتینا گئده‌رک داها چوخ ایلگی گؤسترمه‌م اونو سئویندیریردی.

۱۹۸۹ (۱۳۶۸) ایلینده دوکتور جواد هیئت‌ین تبریزه گلدیگی گونلردن بیرینده یاشانان بیر اولای، حیاتیمین سونراکی دؤنمینده اؤنملی بیر یئره صاحیب اولاجاق تانیشمانین دا باشلانغیجی اولدو.

جواد هیئت، باکی‌داکی کیریل حرفلری ایله یاییملانمیش «آذربایجان شیفاهی خالق ادبیاتی» آدلی کیتابینی منه اوزاداراق اوخومامی ایسته‌دی. کیتابی الیمه آلدیم و سطیرلری اوخوماغا باشلادیم. کیریل حرفلرینی زورلانمادان و سرعتله اوخودوغومو گؤرونجه موتلولوغونو گیزله‌ده‌بیلمه‌دی. اوزونو بؤیوک قارداشیم دوکتور فرهادا چئویره‌رک:

«محمدرضا تهرانا، منیم یانیما گلمه‌لی‌دیر.» دئدی.

او تاریخده لیسه سون صینیف اؤیرنجیسی ایدیم. بیر آن اؤنجه عسگرلیگیمی تاماملاییب، آردیندان پاسپورتومو آلاراق تورکولوژی تحصیلی اوچون باکی‌یا گئتمگی پلانلاییردیم. آنجاق عسگره گئتمه‌مه یاخلاشیق بیر ایل واردی.

جواد هیئت بیر سوره دوشوندوکدن سونرا تلفون دفترینی الینه آلدی. صحیفه‌لری قاریشدیرارکن منه، تلفون ائده‌جگی شخصین چوخ بؤیوک بیر دیلچی و عالیم اولدوغونو سؤیله‌دی. آردیندان دوکتور زهتابی‌نین تلفونونو تاپدی و اونا زنگ ائتدی.

تلفونون او بیری اوجوندا‌کی شخصین ایللردیر *وارلیق* صحیفه‌لرینده آدینی گؤردویوم و یازیلارینی اوخودوغوم دوکتور زهتابی اولدوغونو بیلیردیم. آرالاریندا‌کی صحبتین سون درجه صمیمی اولدوغو داها ایلک جمله‌لردن آنلاشیلیردی.

59

جواد هیئت مندن بیر آز اؤوگو ایله سؤز ائتدیکدن سونرا بئله دئدی:

«قارداش‌اوغلوم محمدرضانی سیزه گؤندرمک ایسته‌ییرم. اونون الیندن توتون لطفا.»

بو جمله‌نی هئچ اونوتمادیم.

دوکتور زهتابی ده جواد هیئت‌ین ایستگینی قبول ائتدی. هفته‌نین ایلک گونو تبریز رادیوسو دیش یاییینلار بؤلومونه (برون مرزی) گلمه‌می سؤیله‌دی.

تلفون دانیشغی سونا چاتمیشدی، اما منیم هیجانیم یئنی باشلاییردی. او آندا دوکتور زهتابی‌نین «الیمدن نئجه توتاجاغینی»، منه نه‌لر اؤیره‌ده‌جگینی تام اولاراق بیلمیردیم. بیلدیگیم تک شئی، ایللردیر آدینی ائشیتدیگیم و یازیلارینی اوخودوغوم بیر بیلیم آدامی ایله تانیشاجاق و اوندان بیر شئیلر اؤیره‌نه‌جک فرصتی تاپاجاق اولماغیم ایدی.

بلیرله‌نن گون و ساعاتدا تبریز رادیوسونا گئتدیم. گؤره‌ولیلرین یؤنلندیرمه‌سی ایله دیش یاییینلار بؤلومونده‌کی بیر اوتاغا گیردیم. ایچری گیردیگیمده دوکتور زهتابی‌نی همن گؤردوم.

اوتاغین قاپیپا یاخین طرفینده‌کی صندلیده اوتوروردو. چئوره‌سینده ایسه رادیو چالیشانلاری واردی. قیسا سوره سونرا اونلارین دا دوکتور زهتابی‌دن تورکجه درسی آلدیقلارینی آنلادیم.

دوکتور زهتابی منی یانینا چاغیردی. الیمه کیچیک بیر کاغیذ وئردی و سسینی قیساراق:

«بورادا سنین اوتورمانا ایذین وئرمزلر. ائولرده ده درسلره باشلایاجاغیق. بو، مهندس اقدسی‌نین نومره‌سی‌دیر. زنگ ائله؛ سنه گونونو و آدرسینی سؤیله‌یه‌جک.» دئدی.

کاغیذی آلدیم و اینانیلماز بیر هیجانلا اوتاقدان چیخدیم. بئله‌لیکله دوکتور جواده هیئت‌ین بیر نئچه گون اؤنجه تلفوندا سؤیله‌دیگی «اونون الیندن توتون» سؤزو منیم اوچون سوموت (عینی) بیر آنلام قازانماغا باشلامیشدی.

آنجاق اساس حکایه، دوکتور زهتابی‌نین ائولرده وئردیگی او درسلرله باشلایاجاقدی.

آرادان ایکی گون گئچمه‌دن مهندیس اقدسی‌یه تلفون آچدیم. اؤزومو تانیتدیم و تلفون نومره‌سینی دوکتور زهتابی‌دن آلدیغیمی سؤیله‌دیم. منی بؤیوک بیر نزاکتله قارشیلادی؛ اونا مندن سؤز ائدیلدیگینی و گله‌جگمیدن خبری‌نین اولدوغونو سؤیله‌دی. درسلرین هله باشلامادیغینی، آنجاق بیر-ایکی هفته ایچینده باشلایاجاغینی و گونو بللی اولدوغوندا منه خبر وئره‌جگینی بلیرتدی.

او ایللرده موبایل تلفونو یوخدو، ارتباط ساده‌جه ثابیت تلفونلارلا ساغلانابیلیردی. بو نه‌دنله ائوده‌کیلره دورومو آنلاتدیم و مهندیس اقدسی‌دن تلفون گؤزله‌دیگیمی سؤیله‌دیم. یاخلاشیق اون گون سونرا گؤزله‌دیگیم تلفون گلدی. مهندیس اقدسی درسین یاپیلاجاغی گونو و ساعاتی سؤیله‌دی، آردیندان آدرس وئردی.

۱۸-۱۷ یاشلاریندا بیر گنج اولاراق ایلک دفعه آنا دیلیمده، اوسته‌لیک اوسته‌لیک اونو قرامرینی اؤیرنمک اوزره درس آلاجاق اولمانین هیجانی بوتون منلیگیمی بورواموشدو. درسده کیملرین اولاجاغی دا منیم اوچون ماراقلی ایدی. منیم کیمی دیلیمیزه کؤنول وئرمیش گنجلرله تانیشاجاغیمی دا دوشونور، او گونو صبیرسیزلیکله گؤزله‌ییردیم.

بلیرله‌نن گون و ساعاتدا وئریلن آدرسه گئتدیم و قاپینی چالدیم. محترم بیر خانیم قاپینی آچدی و منی بیر اوتاغا یؤنلندیردی. ایچری گیردیگیمده منی شاشیردان منظره ایله قارشیلاشدیم. منیم کیمی گنجلرله قارشیلاشماغی گؤزلرکن، کیمیلرینی تانیدیغیم، کیمیلرینی ایسه ایلک دفعه گؤردویوم مندن یاشجا اولدوقجا بؤیوک انسانلارین آراسیندا گؤردوم اؤزومو. من اوتاغا گیرینجه آیاغا قالخاراق «خوش گلدین» دئدیلر.

اورادا اولانلاردان دوکتور زهتابی‌نی البته تانییردیم. حسن دمیرچی و صمد سرداری‌نیانی دا بیلیردیم. مهندیس اقدسی، مهندیس تقوی و رحیم رئیس‌نیا ایله یاخیندان ایلک کز اورادا تانیشدیم. مهندیس اقدسی‌نین دوکتور زهتابی‌نین باجیسی اوغلو اولدوغونو دا داها سونرا اؤیرندیم.

هامی یئرده اوتورووردو. من ده آرالارینا قاتیلدیم. یاشیمین کیچیکلیگیندن و ایلک دفعه بئله بیر اورتامدا اولدوغومدان قایناقلانان هیجانی فرق اتمیش اولمالیدیرلار کی، چوخ دا اوزرینده دورمادان صحبتلرینه قالدیقلاری یئردن داوام ائتدیلر. بئله‌لیکله من ده قیسا سوره‌ده راحاتلاماغا باشلادیم.

بیر سوره سونرا درس باشلادی. دوکتور زهتابی اؤنجه‌دن حاضیرلادیغی درس نوتلاریندان بیر نئچه صحیفه منه ده وئردی. ایلک قونوموز سس بیلگیسی ایدی. آنلاشیلان بو یالنیز منیم دئییل، قروپون دا ایلک درسلریندن بیری ایدی.

دوکتور زهتابی، اؤزونه مخصوص اوسلوبو ایله بیر باشا قرامر موضوعسونا گئچمک یئرینه اؤنجه دیلیمیزین قابلیتلریندن و گوجوندن دانیشماغا باشلادی. او گون سؤیله‌دیگی بیر جمله حافیظه‌مه ائله قازیلدی کی، آرادان گئچن بونجا ایله باخمایاراق هله ائشیتدیگیم گونکو کیمی خاطیرلاییرام:

«بیز دیلیمیزی قورویابیلمه‌دیک آنجاق دیلیمیز بیزی قورودو.»

او یاشلاردا بئله بو سؤزون درین آنلامی منی چوخ ائتکیله‌میشدی. بیر طرفدن بیزیم بیر میلّت اولاراق دیلیمیزه گرکدیگی اؤلچوده صاحیب چیخمادیغیمیزی آنلادیر، او بیر طرفدن تورکجه‌نین بوتون باسقیلارا و آسیمیلاسیون سیاستلرینه رغماً توپلومو آیاقدا توتان گوجونه اشاره ائدیردی. دیلیمیزی بیز یئترینجه قورویابیلمه‌میشدیک؛ آنجاق دیلیمیز کیملیگیمیزی، حافیظه‌میزی و بیزی بیر-بیریمیزه باغلایان گؤرونمز باغلاری قوروموشدو.

نه یازیق کی، بو سؤزو ایلک ائشیتدیگیم تاریخین اوزریندن ۳۶ ایل گئچمیش اولماسینا باخمایاراق، دوکتور زهتابی‌نین او جمله‌سی بو گون ده گونجللیگینی ساخلایییر.

پلانلاندیغی کیمی درسلر تخمینا بیر ایل بویونجا دوزنلی اولاراق داوام ائتدی. هر هفته قروپوموزداکی شخصلرین بیری‌نین ائوینده توپلانیردیق. بئله‌لیکله ائودن ائوه دولاشان بو درسلر، منیم اوچون ساده‌جه دیل بیلگیسی اؤیرندیگیم بیر درس دئییل، عینی زاماندا دؤنمین اؤنملی آیدینلارینی یاخیندان تانیدیغیم بیر مکتب حالینا گلمیشدی.

درسلر سیراسیندا دوکتور زهتابی‌نین اؤزللیکله ایکی نفره زامان- زامان گیلئیلیک ائتدیگینی ده خاطیرلاییرام: رحیم رئیس‌نیا و صمد سرداری‌نیا. هر ایکیسینی ده اثرلرینی تورکجه یازمادیقلاری اوچون الشدیریردی. اونلار ایسه بو یاشدان سونرا تورکجه‌نی فارسجا قدر راحات یازابیلمه‌یه‌جکلرینی سؤیله‌یه‌رک اؤزلرینی مدافیعه ائدیردیلر.

بو کیچیک تارتیشمالار بئله اصلینده زهتابی‌نین دیل مسئله‌سینه نئجه باخدیغینی گؤستریردی. اونون اوچون تورکجه ساده‌جه اوزرینده آراشدیرما آپاریلماسی گره‌کن بیر دیل دئییلدی؛ یازیلماسی، ایشلنمه‌سی و حیاتین هر ساحه‌سینده ایشله‌دیلمه‌سی گره‌کن بیر دیل ایدی.

بیر ایلین سونوندا من درسلرین تامامینا قاتیلمیش، بیر یاندان دا عسگرلیگه گئتمگه حاضیرلانیردیم. بیر سوره سونرا دوکتور زهتابی‌نین بو درسلر اوچون حاضیرلادیغی نوتلارین کیتاب شکلینده ده یاییملاندیغینی گؤردوم.

داها دا اؤنملیسی، تخمینا بیر ایل سونرا دوکتور زهتابی‌نین بو دفعه اؤزللیکله گنجلره یؤنه‌لیک یئنی ائو کورسلاری دوزنله‌دیگینی اؤیرندیم. چوخ سایید گنج بو درسلره قاتیلاراق تورکجه‌نی

بیلیمسل یؤنتملرله اؤیرنمگه باشلادی. بو گنجلردن بیر چوخو داها سونرا اؤیرندیکلرینی باشقالارینا اؤیرتدی؛ اؤز بؤلگه‌لرینده و یا اونیورسیته‌لرده کؤنوللو تورکجه درسلری دوزنله‌یه‌رک یئنی اؤیرنجیلره تورکجه‌نی اؤیرتمگه باشلادی.

بئله‌لیکله زهتابی‌نین ائولرده باشلاتدیغی درسلر، او اوتاقلاردا توپلانان بیر نئچه نفرین تحصیلی ایله محدود قالمادی. اؤیره‌ننلرین اؤیرتمگه باشلادیغی و گئدرک گئنیشله‌ین بیر حلقه‌یه دؤنوشدو.

سونراکی ایللرده باشقا قرامر کیتابلارینی اوخویوب فرقلی دیل بیلگیسی یاخلاشیملارینی تانیدیقجا، دوکتور زهتابی‌نین او درسلرده آنلاتدیقلاری‌نین و ایشلتدیگی یؤنتمین نه قدر اوریژینال اولدوغونو داها یاخشی باشا دوشمگه باشلادیم. اونون اؤنملی اؤزللیکلریندن بیری، دیل بیلگیسینی آنلاتیرکن اؤرنکلرینی مومکون اولدوغونجا گونئی آذربایجانلی یازار و شاعیرلرین اثرلریندن سئچمه‌سی ایدی. اؤزللیکله میرزه علی معجزون شعرلرینه گئنیش یئر وئریردی. بئله‌لیکله قرامر اؤیره‌دیرکن عینی زاماندا اؤیرنجیلرینی گونئی آذربایجان تورک ادبیاتی‌نین قایناقلاری ایله تانیشدیریردی.

عسگرلیکدن سونرا *وارلیق* درگیسینده چالیشمایا باشلاماملا بیرلیکده دوکتور زهتابی ایله ایلیشکیمیز ده یئنی بیر بویوت قازاندی. آرتیق ساده‌جه اسکی اؤیرنجیسی اولاراق دئییل، تورکجه یایین یاپان بیر درگی‌نین چالیشانی اولاراق دا اونونلا ارتباط حالیندایدیم. گؤروشمه‌لریمیز و خبرلشمه‌لریمیز آرتدی. اؤزللکیله ایملا قایدالاری قونوسوندا تئز- تئز فیکیر آلیش- وئریشی آپاریردیق.

دوکتور زهتابی تهرانا هر گلدیگینده *وارلیق* درگیسینه باش چکر و درگی‌نین تهران‌داکی یازارلاری ایله گؤروشردی. بعضا دوکتور هیئت اونو معاینه ائدر، ساغلیق دورومو ایله ایلگیله‌نر و بونون اوچون گرکلی توصیه‌لری وئررردی.

باکی‌دا اؤیرنجی اولدوغوم ایللرده ده دوکتور زهتابی ایله گؤرشومه‌لریمیز داوام ائتدی. بو گؤروشمه‌لرین بیری مرحوم پروفسور دوکتور نورالدین رضانین ائوینده گرچکلشمیشدی. او گون ائوده دوکتور زهتابی ایله یاناشی دوکتور جواد هیئت و بختیار واهابزاده ده واردی. صمیمی بیر ائو توپلانتیسی ایدی. من ده گنج بیر اونیورسیته اؤیرنجیسی اولاراق بیر بوجاقدا اوتورموش، تورک دونیاسی‌نین بو اؤنملی شخصیتلری‌نین تورک دیلی، ادبیاتی و تاریخی اوزرینه آپاردیقلاری صحبتلری بؤیوک بیر دقت و ذؤقله دینله‌ییردیم.

ایندی او تاریخدن و دوکتور زهتابی‌نین ایلک تورکجه درسینه قاتیلدیغیم گوندن ایللر گئچیر. بونا باخمایاراق بوگون تورک دیلی و ادبیاتی اوزرینه آپاردیغیم هر چالیشمادا، یازدیغیم هر یازیدا و یئتیشدیرمگه چالیشدیغیم هر اؤیرنجیده اونون امگیندن بیر ایز اولدوغونو دوشونورم. بو نه‌دنله دوکتور زهتابی منیم اوچون ساده‌جه بیر عالیم و مجادله آدامی دئییل، منیم ایلک اؤیرتمنیم‌دیر. اونو رحمت، مینّت و درین بیر سایغی ایله آنیرام.

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 63-73
Telif Haqqı©Varlıq Dergisi

گزارش بنیاد عبدالرحمن برومند
در خصوص زندگی و مرگ دکتر محمدتقی زهتابی[۱]

اطلاعات مربوط به پرونده آقای پروفسور محمدتقی زهتابی (متخلص به کیریشچی)، فرزند علی و سعادت، متاهل و دارای دو فرزند، از طریق مصاحبه با چند منبع مطلع ۱، ۲، ۳ و ۴ (۲۶ تیرماه ۱۴۰۲، ۱۳ اردیبهشت ۱۴۰۳، ۱۳ اردیبهشت ۱۴۰۳، ۱۹ اردیبهشت ۱۴۰۳) به دست آمده است. برای تکمیل اطلاعات این پرونده از وبسایت‌های بی‌بی‌سی فارسی (۱۰ مرداد ۱۳۹۷)، بخش آذربایجانی وبسایت صدای آمریکا (۴ شهریور ۱۳۹۵)، عصر نو، (۱۱ آذر ۱۳۸۷)، ایران گلوبال (۹ دی ۱۳۹۱)، آذ تورک، (۱ دی ۱۴۰۱)، آذوح (۴ دی ۱۳۹۷)، گوناز تی‌وی (۲۸ مرداد ۱۴۰۰، ۹ و ۱۰ تیر ۱۴۰۲ و ۲۸ بهمن ۱۴۰۳)، مفاخر آذربایجان (آذر ۱۳۹۲)، سازمان عفو بین‌الملل (۹ تیر ۱۳۸۷)، آذربایجان انترینشنال، زمستان سال ۱۹۹۸، و وبلاگ‌های تورانیان، تاریخ آذربایجان و ترکان (تاریخ نامعلوم)، سایت تبریز بیدار (۱۵ و ۳۰ دی ۱۳۹۴ و ۲۴ فروردین ۱۳۹۵) و وبسایت عصر نو،(۱۱ آذر ۱۳۸۷) به دست آمده است.

